Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

3 may 2025-ci il №15 (9121) www.muallim.edu.az muallim@media.edu.az

Dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanılıb

# Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb



### İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti

Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Bu gün dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Bu gün apardığımız danışıqlar və fikir mübadiləsi əsnasında bir çox önəmli məsələlər haqqında söhbət etdik, fikirlərimizi bildirdik, Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik. Biz bütün məsələlərə səmimi şərait əsnasında öz fikirlərimizi bildirmişik. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf Azərbaycan-İran əlaqələrinin inkişafına çalışmalıdır və çalışır. Hörmətli Prezidentin böyük heyətlə Azərbaycana gəlməsi və bu gün bir çox önəmli sənədlərin imzalanması, o cümlədən prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha bizim xoş niyyətimizi göstərir, onu göstərir ki, biz bütün istiqamətlər üzrə bir-birimizə daha yaxın olmağa çalışırıq.

### Məsud PEZEŞKİAN, İran İslam Respublikasının Prezidenti

Bizim münasibətlərimiz yeni başlamış münasibətlər deyil. Biz qədim dövrlərdən üzü bəri həmişə bir yerdə olmuşuq. Tarixin lap qədim dövrlərindən birlikdə, yan-yana olmuşuq. Sərhəd qonşuluq deməkdir, evlərin qonşuluğu kimi. Qonşuların həyəti var, evi var. Lakin onların bir-birinin arasında gediş-gəliş olur. Bir-birinə dayaq durarlar, kömək edərlər, səsinə səs verərlər. Bizim bu bölgədə mədəniyyət, din, etiqad, siyasət kimi bütün bu sahələrdə həddindən artıq oxşar cəhətlərimiz var. Bununla fəxr edirik. Bunlara ürəkdən bağlıyıq. Çalışacağıq ki, bundan sonra da bu müştərək dəyərlər əsasında münasibətlərimizi davam etdirək... Bütün sahələrdə - sənaye, elm, mədəniyyət, iqtisadiyyat, siyasət, təhlükəsizlik üzrə planlarımız olsun. Biz birlikdə bölgədə sülh, təhlükəsizlik və əmin-amanlığı təmin edəcəyik və öz çətinliklərimizi həll edəcəyik.

# "Konstitusiya və Suverenlik İli"



"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir. Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından

# Təhsil, elm, mədəniyyət və kommunikasiyanın harmoniya içində qovuşduğu mərkəz

## Bakıda ICESCO-nun regional ofisinin rəsmi açılış mərasimi olub



Aprelin 29-da Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ICESCO-nun Azərbaycanda yeni istifadəyə verilmiş regional ofisinin rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Həmçinin tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstanın Azərbaycandakı səfirləri, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova və Azərbaycanda akkreditə olunmuş digər ölkələrin səfirləri, Azərbaycanın ictimai-siyasi xadimləri iştirak ediblər.

ICESCO-nun Bakı ofisinin rəhbəri Abdulhakeem Alsenan bu tarixi əhəmiyyətli tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

Sonra tədbirdə çıxış edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki deyib: "Bu gün biz burada, ICESCO-nun yeni regional ofisinin açılışını qeyd edirik, uzun müddətdir arzuladığımız bir xəyala nəfəs veririk. Bu, əlaqələr qurmaq, əməkdaşlıq etmək arzusu və müdriklik, bilik və ortaq məqsədlə qurulmuş gələcəklə bağlı bir xəyaldır. Burada - əsrlər boyu sivilizasiyaların qovuşduğu yer və sülhün beşiyi olan Bakının mərkəzində təhsil, elm, mədəniyyət və kommunikasiyanın, müasirliyin və adət-ənənənin harmoniya içində qovuşduğu bir mərkəz olacaq regional ofisin açılışında iştirak edirik".

Ardı səh. 2

# 1 gümüş, 2 bürünc

## Şagirdlərimizin növbəti uğuru

25-30 aprel tarixlərində Bosniya və Herseqovinanın Sarayevo şəhərində 42-ci Balkan Riyaziyyat Olimpiadasında milli komandamız uğurla çıxış edərək 1 gümüş və 2 bürünc olmaqla ümumilikdə 3 medal qazanıb. Belə ki, Bakı şəhəri 287 nömrəli "Zəkalar" liseyinin IX sinif şagirdi Fərhad İskəndər gümüş medal, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın X sinif şagirdi Davud Tarverdili və Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Yunis İsayev bürünc medal qazanıblar. Qeyd edək ki, 2007-ci ildən etibarən Balkan Riyaziyyat Olimpiadasında iştirak edən məktəblilərimiz ümumilikdə 1 qızıl, 19 gümüş və 40 bürünc medal əldə ediblər.






"Məqsədim beynəlxalq hüquq üzrə araşdırmalar aparmaqdır"

Bax səh. 4



"Uşaq yaşda formalaşan sağlam vərdişlər gələcəkdə bir çox xroniki xəstəliklərin qarşısını almağa yardım edir"

Bax səh. 7

# Təhsil, elm, mədəniyyət və kommunikasiyanın harmoniya içində qovuşduğu mərkəz

## Bakıda ICESCO-nun regional ofisinin rəsmi açılış mərasimi olub





**Əvvəli səh. 1**

Bu regional ofisin Azərbaycana və Mərkəzi Asiyanın ICESCO-nun üzvü olan dövlətlərinə xidmət göstərəcəyini, regionun digər ölkələrinə də öz töhfəsini verməklə yanaşı, əməkdaşlıq və mükəmməllik ruhunu təşviq edəcəyini vurğulayan Salim bin Məhəmməd əl-Maliki deyib: "Əziz dostlar, bu nailiyyət heç də təsadüfən əldə edilməyib. Bu, həqiqi liderliyin, aydın baxışın və daha yaxşı gələcəyə olan davamlı sadiqliyin bəhrəsidir. Parlaq müdrikliyi və biliyin qüdrətinə olan dərin inamı hamımız üçün bir işıq kimi saçan lider, Zati-aliləri Prezident İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk. Onun davamlı dəstəyi bu baxışı reallaşdırıb. Həmçinin Zati-aliləri, ICESCO-nun xoşməramlı səfiri, təhsilə, mədəniyyətə və insanlığa olan sevgisi ilə bu layihənin reallaşmasına təkan verən Birinci vitse-prezident Mehriban Əliyevaya da minnətdarlığımızı bildiririk.

Bu gün fəxri qonaq qismində tədbirə qoşulan Zati-aliləri Leyla xanıma və Arzu xanıma bizi hörmətlə qarşıladıqlarına və ICESCO ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın həqiqi çempionu olduqlarına görə xüsusi olaraq səmimi minnətdarlığımızı bildiririk".

Bu ofisin xüsusi bir ofis olacağını vurğulayan Salim bin Məhəmməd əl-Maliki qeyd edib: "Bu ofis fərqli şəkildə fəaliyyət göstərəcək. Fərqli ideyalara sahib olacaq. O, məqsədlərinə fərqli şəkildə çatacaq. O, üzv dövlətlərimizlə möhkəm əməkdaşlıq ruhu ilə döyünən, təhsil, mədəniyyət, elm, kommunikasiya sahələrində yeni tərəfdaşlığın ritmlərini əks etdirən canlı bir ürək olacaq.

ICESCO-nun strateji məqsəd və vəzifələrini inkişaf etdirməklə yanaşı, Bakı ofisi ətraf mühitimizi müdrikliklə və təcili olaraq qorumaq, bəşəriyyətə xidmət etmək üçün süni intellekti daha da inkişaf etdirmək, diqqəti sabahın memarları olan gənclərimizə yönəltmək və dəyərli irsimizin, kimliyimizin ruhunun qorunub saxlanılması kimi məqsədlərə xidmət edəcək. Bu ofisdə ilhamverici layihələr və yeni ideyalar yaradılacaq. Burada ölkələr və nəsillər arasında əlaqələri möhkəmləndirən bağlar yaranacaq.

Biz ICESCO olaraq bu mərkəzi xəyallarla, müdrikliklə və biliklə qurmağı seçirik. Bu yeni regional ofis xəyalpərəstləri, o cümlədən bunun reallaşmasını mümkün edən liderləri ləyaqətə, biliyə, mədəniyyətə, sülhə və xüsusilə də gələcəyin formalaşmasında birgə işləməyə çağıran, onlara bələdçilik edən, yollarını işıqlandıran bir mayak olacaq. Sizi bir daha əmin edirəm ki, bu ofis kökü müdriklik, budaqları sülh, meyvələri gələcək nəsillərə ümid mirası olan qüdrətli bir ağacın toxumu olacaq".

Daha sonra tədbirdə ICESCO-nun yaranma tarixi, Azərbaycanla qurulan ikitərəfli əlaqələr barədə videoçarx nümayiş olunub.

Sonda Leyla Əliyeva ofisin xatirə kitabına ürək sözlərini yazıb.

# Leyla Əliyeva və Arzu Əliyeva tələbələrin konsertində iştirak ediblər





Aprelin 30-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Böyük zalında Bakı Kamera Orkestri, BMA-nın tələbələri və "Simurq" layihəsi gənc pianoçularının konserti keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva konsert proqramını izləyiblər.

Tədbiri "Baku Chamber Orchestra" Üzeyir Hacıbəylinin "Arazbarı" əsəri ilə açıb. Ardınca maraqlı və rəngarəng çıxışlar təqdim olunub. Proqramda tələbə və şagirdlər Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa ediblər.

Bakı Kamera Orkestrinin bədii rəhbəri, BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli və kollektivin baş dirijoru Əməkdar artist Fuad İbrahimovun iştirakı ilə keçirilən konsert maraqla qarşılanıb.

Qeyd edək ki, "Simurq" layihəsinin əsas məqsədi istedadlı gəncləri üzə çıxarmaq və onları dəstəkləməkdir. Tədris ili boyunca layihəyə seçilmiş iştirakçılar Moskva Konservatoriyası nəzdindəki Mərkəzi Musiqi Məktəbi, Moskva Konservatoriyası, Qnesin adına Musiqi Kolleci, Xorvatiya Musiqi Akademiyası və digər nüfuzlu təhsil müəssisələrinin peşəkar müəllimləri ilə çalışırlar.

# "Üzeyir Hacıbəyli və musiqi mirası" adlı konsert tədbiri keçirilib





Elm və Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş "Üzeyir Hacıbəyli və musiqi mirası" adlı konsert tədbiri keçirilib.

Tədbirin keçirilməsində məqsəd Azərbaycan xalqının dahi bəstəkarı, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi, görkəmli musiqişünas alim, publisist, dramaturq Üzeyir Hacıbəylinin dünya musiqisi tarixində tutduğu mövqeyini, musiqi mədəniyyətimizin inkişafındakı misilsiz xidmətlərini gənc nəslə tanıtmaq, bu mədəni irsi qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Murad Hüseynov, millət vəkili Mehriban Vəliyeva, tanınmış mədəniyyət və incəsənət nümayəndələri və digər rəsmilər iştirak ediblər. Konsert tədbirində ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrindən 400 nəfərdən çox tələbə də tamaşaçı qismində iştirak edib.

Tədbirdə təhsilalanların ifasında dahi bəstəkar Üzeyir Hacıbəylinin unudulmaz əsərləri səsləndirilib, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

# "QALİB ADINI QAZANACAĞAM"

**Reportaj**





## Şagirdlər biliklərini təcrübədə sınadılar

Aprelin 29-da ölkəmizin ən parlaq gənc zehinləri Respublika fənn olimpiadalarının fizika fənni üzrə praktiki turunda bilik və bacarıqlarını nümayiş etdirmək üçün Azərbaycan Texniki Universitetinin idman zalında bir araya gəldilər. Fizika - bu elmin özəlliyi təkcə nəzəriyyədə deyil, onun praktikada canlanmasındadır. Məhz bu gün zal fizikanı sevən, onu düşüncə və təcrübə ilə yoğuran şagirdlərlə doludur. Burada toplaşan ən istedadlı yeniyetmələrimiz artıq dünən adıçəkilən fənn üzrə nəzəri biliklərini sübut ediblər, indi isə işıq sürətindən, maqnit sahələrindən, termodinamikadan danışan düsturları gerçək həyata gətirmək zamanıdır. Elmə və texnologiyaya maraq göstərən yüzlərlə şagirdin sırasından seçilən məktəblilərimiz üçün bu mərhələ yalnız bir yarış deyil, həm də gələcək elmi karyeralarının ilk addımı hesab olunur. Bu nüfuzlu bilik yarışını izləyənlər arasında təhsil nazirinin müavini Firudin Qurbanov da var. Nazir müavininin şagirdlərin yazı masalarına yaxınlaşaraq onlara səmimi və həssaslıqla yanaşması yeniyetmələrin nigarançılıqlarına və narahatlıqlarına son qoyur.

Hamı sakitcə sual kitabçasındakı tapşırığı diqqətlə nəzərdən keçirir, verilən sualın praktik şəkildə həllini tapmağa çalışır. Bunun üçün hər kəsin qarşısında praktik məsələlərin həlli ilə bağlı lazım olan ləvazimatlar da var.

Vaxt gedir... Kimisi artıq sualın praktik hissəsinin rahatlıqla ləvazimatlardan istifadə etməklə yolunu tapır, kimisi isə verilən tapşırığın mahiyyətini daha yaxşı başa düşmək üçün onu diqqətlə nəzərdən keçirir. Məqsəd də birdir, məram da. Bu gün rəqibləşmiş şagirdlər bir-birindən bir addım daha öndə olmaq - olimpiada qalibi adını qazanmaq iddiasındadır.

### İxtisas və peşə seçiminə zəmin yaradan olimpiada

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev son illər şagirdlər tərəfindən Respublika fənn olimpiadalarına, müsabiqələrə marağın artdığını deyir. Paytaxtla yanaşı, ölkəmizin bütün bölgələrindən qatılan şagirdlərin bilik və bacarıqlarının yüksək olduğunu söyləyir ki, bu da son nəticədə Azərbaycan məktəbinin, bütövlükdə təhsilimizin uğuru deməkdir.

Direktor müavini fənn olimpiadalarının keçirilməsində əsas məqsədin şagirdlərdə keyfiyyətli təhsil almaq, biliklərə marağı artırmaq və özünəinam hisslərini gücləndirmək, ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənənləri aşkar etmək, həmçinin onların ixtisas və peşə seçiminə hazırlanması üçün zəmin yaratmaqdan ibarət olduğunu bildirir. F.Qarayev builki Respublika fənn olimpiadalarının fizika fənni üzrə respublika mərhələsinin final turuna vəsiqə qazanmış 121 şagirdin dünən imtahan mərhələsində, bu gün isə praktiki turunda iştirak etdiyini diqqətə çatdırır.

### "Burada iştirak etmək çox maraqlı, eyni zamanda məsuliyyətdir"

Praktik turun sona çatmasına sayılı dəqiqələr qalırdı. İmtahan kitabçalarını təhvil verib çıxan uşaqlarla söhbətləşirik.

Muradxan Məcidli Mingeçevir şəhər 1 nömrəli tam orta məktəbin VIII sinif şagirdidir. Ötən il Respublika fənn olimpiadaları müsabiqəsində fizika fənni üzrə II yerin qalibi olub. Ümid edir ki, builki olimpiadanın respublika qaliblərindən biri olacaq: "Fizika fənnini çox sevirəm. Elə arzum da gələcək ali təhsilimi fizika üzrə almaqdır. Bakı Dövlət Universitetinin Fizika fakültəsində təhsil almaq istəyirəm. Bu gün praktiki turda verilən tapşırıq mənim üçün həm maraqlı, həm də yetərincə rahat idi. Əminəm ki, tapşırığımı düzgün həll etmişəm".

Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin IX sinif şagirdi Siyavuş Mütəllimov deyir ki, olimpiadada iştirak etmək onun üçün çox maraqlı, eyni zamanda məsuliyyətdir: "Bu gün praktiki turda çox maraqlı tapşırıqla qarşılaşdıq. Təcrübə vasitəsilə nəzəri bilikləri praktiki şəkildə tətbiq etmək çox faydalı oldu. Bu cür tapşırıqlar bizə fizikanın real həyatda necə işlədiyini başa düşməyə kömək edir. Nəticədə özümə bir daha əmin oldum. Bu sahədə daha çox öyrənmək istəyirəm".

Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin IX sinfində təhsil alan Nərgiz Bəhrəmli də fizika fənni üzrə mənimsədiyi biliklərinin praktiki turda xüsusi rol oynadığını qeyd edir: "Adətən fizikanı çətin fənn sayırlar. Mənim üçün isə bu, belə deyil. Sadəcə fizika nizamlı şəkildə dərs öyrənməni, təkrar etməni tələb edən fənn olduğundan ona ciddi və sevərək yanaşmaq lazımdır. Olimpiadanın respublika turuna qədər gəlib çıxdığıma görə sevinirəm. Ümid edirəm ki, qalib adını qazanacağam".

### Biliyinə əmin olanlar...

Bu gün biz, yalnız bilik yarışının deyil, eyni zamanda özünəinamın, əzmin və elmə olan marağın şahidi olduq. Biliyinə arxalanan, düşüncəsini sərbəst ifadə edən yeniyetmələr fizika ilə danışdılar, onu hiss etdilər, biliklərini təcrübədə sınadılar. Yeniyetmələrimizin gözlərindəki həyəcan və ümid, elmə olan sevgi və maraq onların hər birinə yeni bir dünyaya qapı açmağın xəyalını verir. Və bəlkə də, burada, bu anlarda, bizlər gələcəyin böyük fiziklərını izlədik.

**Samirə KƏRİMOVA**

# Elm və təhsil naziri Astarada vətəndaşları qəbul edəcək




Elm və təhsil naziri Emin Əmrullayev 30 may tarixində Astara şəhərində vətəndaşları qəbul edəcək. Qəbulda Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad və Yardımlı sakinləri iştirak edə bilərlər. Adları çəkilən rayonların sakinləri 13 may (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +99451206-78-48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

# Nazir müavini Macar-Türk Sammitində iştirak edib




28-29 aprel tarixlərində elm və təhsil nazirinin müavini İdris İsayev Macarıstan Respublikasının Budapeşt şəhərində keçirilən Mədəniyyət, Ali Təhsil və İnnovasiya üzrə Macar-Türk Sammitində iştirak edib. Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hanko açılış nitqi ilə çıxış edib. Nazir Macarıstanın ali təhsil sistemi haqqında məlumat verib və macar universitetləri ilə potensial əməkdaşlıq məsələlərinə toxunub.




## "Türk Dövlətləri və Macarıstan arasında ali təhsil, innovasiya və mədəniyyət sahələrində əməkdaşlığa dair" bəyannamə imzalanıb

Sammit çərçivəsində nazir müavini İdris İsayev təhsilə həsr olunmuş "Regional əməkdaşlığın gücü — Türk Dövlətləri və Macarıstan arasında sıx əməkdaşlıq" adlı paneldə çıxış edib.

Çıxışı zamanı nazir müavini Azərbaycan Respublikası ilə Macarıstan və Türk Dövlətləri Təşkilatı arasında elm və təhsil sahəsində mövcud olan cari əməkdaşlıq haqqında məlumat verib və gələcək inkişaf perspektivlərinə dair təkliflər səsləndirib.

İdris İsayev həmçinin Azərbaycan Respublikasının elm sahəsində strateji tərəfdaşlığa böyük önəm verdiyini, digər türk dövlətləri və Macarıstanla birlikdə bu sahələrdə birgə proqramların, tədqiqat qruplarının və informasiya mübadiləsi sistemlərinin yaradılmasının əhəmiyyətini vurğulayıb.

Tədbirin sonunda "Türk Dövlətləri və Macarıstan arasında ali təhsil, innovasiya və mədəniyyət sahələrində əməkdaşlığa dair" bəyannamə imzalanıb.



# Nazir müavini İtaliya Deputatlar Palatasının üzvü ilə görüşüb

Aprelin 30-da elm və təhsil nazirinin müavini Kənan Kərimzadə İtaliya Deputatlar Palatasının üzvü, Xarici Əlaqələr üzrə Komitənin təmsilçisi Naike Gruppioni ilə görüşüb.

Görüş zamanı təhsil sahəsində əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə olunub.

# Böyük müəllim, alim, humanist insan

## Nazir müavini Mir Cəlal Paşayevin yaradıcılıq gecəsində iştirak edib





Milli Aviasiya Akademiyasının (MAA) təşkilatçılığı ilə Əməkdar elm xadimi, yazıçı, alim Mir Cəlal Paşayevin anadan olmasının 117-ci ildönümü münasibətilə Gəncə şəhərində yaradıcılıq gecəsi keçirilib.

Mir Cəlal Paşayevin adını daşıyan ev muzeyində keçirilən tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, MAA rəhbərliyi, həmçinin şəhər rəsmiləri, ictimai xadimlər və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən MAA-nın birinci prorektoru Ədalət Səmədov Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığının özündən sonra gələn nəsillərə örnək olduğunu vurğulayıb.

Çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov yazıçı, alim və müəllim kimi üç müqəddəs peşəni öz müdrik şəxsiyyətində cəmləşdirən Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı misilsiz xidmətlərinə toxunub. Müəllim, məktəb direktoru, ali məktəb müəllimi olaraq pedaqoji fəaliyyət göstərmiş Mir Cəlal Paşayevin şagird və tələbələrinin nəzərində böyük müəllim, alim olmaqla yanaşı, həm də humanist bir insan olduğunu bildirib.

Nazir müavini əlavə edib ki, tanınmış pedaqoq və elm xadimi olan ədib klassik və müasir ədəbiyyata dair elmi əsərləri, kitabları ilə ədəbi nəslin yetişməsində, öz pedaqoji fəaliyyəti ilə yüksəkixtisaslı kadrların formalaşmasında böyük rol oynayıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında qədimiliyi və müasirliyi özündə cəmləşdirən Gəncə şəhərinin ruhunda Mir Cəlal izinin olduğunu vurğulayıb.

Çıxış edən digər qonaqlar Mir Cəlal Paşayevin insani keyfiyyətləri ilə xalqımızın yaddaşında bir iz buraxdığını diqqətə çatdırıblar.

Çıxışlardan sonra MAA tələbələrinin hazırladığı şeir nümunələri səsləndirilib, bədii kompozisiyalar nümayiş olunub.

# Dövlət və ikili diplom proqramları təhsil sahəsində əməkdaşlığın inkişafına töhfə verir

## Nazir müavini Azərbaycan-Böyük Britaniya Hökumətlərarası Komissiyanın 7-ci iclasında çıxış edib

Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.



Elm və təhsil nazirinin müavini Həsən Həsənli də Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində iclasda iştirak edib.

Hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən Hökumətlərarası Komissiyanın iclasında həmsədrlər - Birləşmiş Krallığın xidmətlər, kiçik bizneslər və ixrac naziri Qaret Tomas və Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxış ediblər.

Azərbaycanın 30-a yaxın dövlət qurumunun təmsil olunduğu iclasda 20-dən çox sahə üzrə görülmüş işlər, həlli vacib məsələlər nəzərdən keçirilib və inkişaf perspektivlərinə dair təqdimatlar edilib. İqtisadiyyatın modernləşdirilməsi/diversifikasiyası üzrə Böyük Britaniya ilə maliyyə və peşəkar xidmətlər, texnologiya, süni intellektin tətbiqi, kiçik və orta sahibkarlıq fəaliyyətinin təşviqi, kibertəhlükəsizlik, elm və təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlıq imkanları dəyərləndirilərək, mümkün istiqamətlər müəyyənləşdirilib.

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti barədə iclas iştirakçılarını məlumatlandırıb. Həsən Həsənli Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında təhsil alan tələbələrin əhəmiyyətli sayını vurğulayaraq Dövlət Proqramları və ikili diplom proqramlarının ölkələr arasında təhsil sahəsində əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd edib. Bununla yanaşı, elm və təhsil nazirinin müavini çıxışında STEAM təhsili və rəqəmsal qiymətləndirmə üzrə əməkdaşlıq imkanlarının araşdırılması, elmi və ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi kimi bir sıra mühüm məsələlərə toxunub.

Yekunda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Komissiyanın 8-ci iclasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə qərar verilib.

# Təhsil iqlim dəyişikliyi ilə mübarizədə ən güclü vasitədir

## Qarabağ Universitetində Beynəlxalq COP simulyasiya konfransı keçirilib

Qarabağ Universitetində Qoşulmama Hərəkatı Gənclər Təşkilatı (QHGT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) simulyasiya konfransı keçirilib.

Tədbirin keçirilməsində məqsəd COP29-un əsas mövzu və məqsədləri haqqında gəncləri maarifləndirmək, onların iqlim fəaliyyətində iştirakını artırmaq və iştirakçılar arasında ünsiyyət və ictimai nitq bacarıqlarının inkişafını təşviq etməkdir.

Tədbirdə Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək qonaqları salamlayıb və universitetin inkişaf dinamikasından söz açıb. Rektor qeyd edib ki, regionda keyfiyyətli təhsil mərkəzi kimi formalaşan Qarabağ Universitetində bu cür beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi tələbələr üçün böyük bir təcrübə platformasıdır.

Konfransın açılış mərasimində çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə sahəsində həyata keçirdiyi tədbirlərdən, bu istiqamətdə beynəlxalq əməkdaşlığın və tərəfdaşlığın önəmindən bəhs edib. Nazir müavini qeyd edib ki, COP çərçivəsində təşkil olunan bu cür simulyasiya konfransları gənclərin iq-









lim dəyişiklikləri mövzusunda bilik və bacarıqlarının artırılmasına, onların beynəlxalq proseslərdə fəal iştirakına mühüm töhfə verir. Yalçın Rəfiyev gənclərin bu istiqamətdə təşəbbüslərinin dəstəklənməsinin Azərbaycanın iqlim gündəliyinin prioritetlərindən biri olduğunu diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxışında iqlim dəyişikliyinin təsirlərindən söz açaraq bildirib ki, gənc nəsil bu məsələnin həllində əsas iştirakçılardan olmalıdır. Mətin Kərimli qeyd edib ki, təhsil iqlim dəyişikliyi ilə mübarizədə ən güclü vasitədir və bununla bağlı biliklərin gündəlik öyrənmə metodunun bir hissəsinə çevrilməsi istiqamətində addımlar atılır.

Çıxış edən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri və COP29-un Gənc İqlim Çempionu Leyla Həsənova, İƏGF Avrasiya Regional Mərkəzinin direktoru Rafiq İsmayılov da öz növbələrində gənclərin ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə bağlı aparılan qlobal prosesdə aktiv iştirakının vacibliyindən, eləcə də 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29 tədbiri zamanı qəbul edilmiş qərarların həyata keçirilməsi perspektivlərindən, onun qlobal ekoloji prosesə verdiyi töhfələrdən bəhs ediblər.

Açılış mərasiminin ardından simulyasiya konfransı öz işini plenar iclaslar formatında davam etdirib.

Qeyd edək ki, ikigünlük konfransda tələbələr müxtəlif ölkələrin nümayəndə heyətləri, beynəlxalq təşkilat və media təmsilçiləri kimi fərqli rollarda çıxış ediblər. Gənc iştirakçılar işçi qruplara bölünərək qlobal iqlim dəyişikliyi ilə bağlı müxtəlif ölkələrdə görülən işlərin effektivliyi, gənclərin bu prosesdə iştirakı, alternativ enerji, yaşıl dünya mövzuları ətrafında müzakirələr aparıblar.

# Dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanılıb




2025-2026-cı tədris ilinə ümumi təhsil müəssisələrinin II və VI sinifləri üçün təkmilləşdirilmiş və ya yeni hazırlanmış dərslik və onunla komplekt təşkil edən metodik vəsaitlərinə dair ictimai rəyin öyrənilməsi prosesinə başlanılıb.

“Azərbaycan müəllimi” xəbər verir ki, dərslik komplektlərinin layihələri *www.trims.edu.az* saytının “İctimai müzakirədə olanlar” bölməsində yerləşdirilir. Yaxın müddətdə bütün layihələrin sayta yerləşdirilməsi başa çatacaq.

Sayta daxil olaraq qeyd edilən bölmədə yerləşdirilmiş dərslik komplektlərinin məzmunu ilə tanış olmaq, xüsusi ayrılmış sahədə irad və təklifləri qeyd etmək mümkündür. İrad və təkliflər *derslik@edu.gov.az* elektron ünvanına da göndərilə bilər.

Elm və Təhsil Nazirliyi alimləri, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, ictimai birlikləri və bütün maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərslik layihələrinə dair rəy, irad və təkliflərini bildirməyə dəvət edir.

*Dövlət Proqramı təqaüdçüsü*

# “Məqsədim beynəlxalq hüquq üzrə araşdırmalar aparmaqdır”

Son illərdə dünyanın nüfuzlu ali təhsil müəssisələrinə üz tutan gənclərimizin uğur hekayələri hər birimizi sevindirir. Xaricdə təhsil dövründə yüksəkixtisaslı peşəkarlar kimi formalaşan gənclərimiz Azərbaycanın yaxın illərdə və gələcəkdə tərəqqisinə xidmət edən qiymətli insan kapitalıdır. Onlardan biri də “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyada təhsil alan Cavid Rəhimlidir. Qarşımızda güclü məntiqi təfəkkür, dərin bilik və səriştəyə malik, siyasi cəhətdən yetkin bir Azərbaycan gənci durur. “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində gənc istedad öz uğur yolundan danışır və maraqlı açıqlamalar verir. Müsahibəyə keçməzdən öncə müsahibimizi oxucularımıza daha yaxından tanıdaq.



**Cavid RƏHİMLİ**

**“Elmi araşdırmam Qərbi Azərbaycana qayıdış hüququnun beynəlxalq hüquq kontekstində əsaslandırılması və tətbiq imkanlarını əhatə edir”**

**Tanıtım**

Cavid İlqar oğlu Rəhimli 2002-ci ildə Bakı şəhərində anadan olub. Əslən Qərbi Azərbaycanın Qafan rayonundandır. Bakıdakı 193 nömrəli tam orta məktəbdə təhsil alıb. 2019-cu ildə 684.4 balla BDU-nun Hüquq fakültəsinə daxil olub, Prezident təqaüdünə layiq görülüb və 99/100 ortalama ilə ali məktəbi bitirib. 2024-cü ildə ABŞ-nin Corc Vaşinqton Universitetində xarici əlaqələr hüququ üzrə magistr dərəcəsi alıb, Oksford Universitetində insan hüquqları üzrə mübadilə proqramında iştirak edib. Hazırda “2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Kembric Universitetində beynəlxalq hüquq üzrə magistr təhsili alır və Londonda kral vəkili köməkçisi kimi çalışır. Əsas araşdırma mövzusu Qərbi Azərbaycana qayıdış hüququdur. C.Rəhimli Vaşinqtonda Azərbaycan Tələbə-Məzun Platformasının ABŞ üzrə koordinatoru kimi və bir siyasətçi köməkçisi olaraq fəaliyyət göstərib. Londonda "Henry Jakson Society" beyin mərkəzində təcrübə keçib, hazırda isə “Chatham House”un (Kral Beynəlxalq Münasibətlər İnstitutu, İngiltərənin beynəlxalq münasibətlər üzrə beyin mərkəzi - red) dialoq platformasının üzvü kimi müzakirələrə qatılır. Cavid Rəhimli həmçinin tarixi debat cəmiyyəti Kembric Birliyində çıxış edən ilk azərbaycanlıdır. Onun Beyin Mərkəzindəki çıxışı maraq doğurduğuna görə şəklini məşhur icmanın divarından asıblar.

### “Bu təşəbbüs Azərbaycanın gələcəyi üçün güclü təməl yaradır”

- *“2022-2028 Dövlət Proqramı” sizin üçün nə kimi imkanlar açdı, proqramın əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- Dövlət Proqramı mənə həm təhsil, həm də peşəkar inkişaf baxımından mühüm imkanlar qazandırdı. Bu proqramın əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın gənc beyinlərinə qlobal səviyyədə rəqabətədavamlı təhsil almaq, beynəlxalq mühitdə şəbəkələşmək və ölkəmizi layiqincə təmsil etmək imkanı yaradır. Eyni zamanda, insan kapitalımızın güclənməsinə və gələcək liderlərin yetişdirilməsinə töhfə verir. Proqramın ərsəyə gəlməsində və həyata keçirilməsində əməyi olan hər kəsə dərin təşəkkürümü bildirirəm. Bu təşəbbüs saysız-hesabsız gəncin həyatına müsbət təsir göstərir və Azərbaycanın gələcəyi üçün güclü təməl yaradır.

### Kembric Universitetinin akademik jurnalının azərbaycanlı redaktoru

- *Kembric Universitetində ali təhsiliniz, ixtisasınız barədə məlumat verməyinizi istərdik.*

- Hazırda mən Kembric Universitetində hüquq üzrə magistratura təhsili alıram (LL.M proqramı). Təhsilimin əsas istiqamətləri beynəlxalq cinayət hüququ, beynəlxalq investisiya hüququ və beynəlxalq arbitrajdır. Eyni zamanda universitetin beynəlxalq hüquq üzrə akademik jurnalında redaktor kimi fəaliyyət göstərirəm. Elmi araşdırma mövzum Qərbi Azərbaycana qayıdış hüququnun beynəlxalq hüquq kontekstində əsaslandırılması və tətbiq imkanlarını əhatə edir.

- *Kembric kimi nüfuzlu ali məktəbdə beynəlxalq hüququ öyrənməyə necə qərar verdiniz?*

- Kembricdə beynəlxalq hüquq üzrə təhsilə başlamamın əsas səbəbi ABŞ-də Corc Vaşinqton Universitetində birillik LL.M proqramını bitirsəm də, bu sahənin mürəkkəbliyi və nəzəri dərinliyi baxımından əlavə ixtisaslaşmaya ehtiyac duyduğumu düşünməyim oldu. Açıq desəm, dövlətin yaratdığı ödənişsiz təhsil imkanından da yararlanmaq istədim. Gənc yaşda, enerjim və motivasiyam varkən bu fürsəti qaçırmaq istəmədim.

### Böyük məsuliyyət, nadir bir fürsət

- *Londonda Chatham House kimi bir icmada təmsil olunmaq azərbaycanlı gənc üçün nə deməkdir? Buradakı missiyanız və işləriniz barədə məlumat verərdiniz. Bu platformada Azərbaycanın ədalətli mövqeyini xarici auditoriyaya çatdırmaq imkanı varmı?*

- Chatham House kimi nüfuzlu bir platformada təmsil olunmaq mənim üçün həm böyük məsuliyyət, həm də nadir bir fürsətdir. Biz burada qlobal mövzuları daimi olaraq qapalı müzakirə platformalarında təhlil edirik və iştirakçılar öz ölkələrinin gələcək potensial liderləri hesab olunurlar. Belə bir mühitdə Azərbaycanın ədalətli mövqeyinin səsləndirilməsi xüsusilə önəmlidir, çünki burada formalaşan baxışlar sabahın siyasətinə birbaşa təsir göstərə bilər. Bu icmada əsas missiyam beynəlxalq hüquqla bağlı müxtəlif məsələlərə peşəkar yanaşma ilə rəy vermək və bu sahədə qlobal miqyasda etibarlı, nüfuzlu bir səsə çevrilməkdir.

- *Xaricdə təhsil alan tələbələrimizin öhdəsinə həm də Azərbaycanın milli-mənəvi dəyərlərini təbliğ etmək kimi bir vacib missiya düşür. Bu barədə fikirlərinizi eşitmək istərdik.*

- Əslində, biz gənclər bəzən xüsusi bir təşəbbüs göstərməsək belə, gündəlik davranışlarımız, münasibətlərimiz və düşüncə tərzimiz vasitəsilə milli kimliyimizdən qaynaqlanan müsbət xüsusiyyətləri nümayiş etdirməklə Azərbaycanı əcnəbilərə sevdiririk. Əxlaqi dəyərlərimiz, qonaqpərvərliyimiz və mədəniyyətə hörmətimiz xarici auditoriyada ölkəmiz haqqında müsbət təəssürat yaradır ki, bu da ən təsirli və təbii təbliğat formalarından biridir.

### Multikulturalizm bizi sadəcə müxtəlifliyi qəbul edən deyil, onu yaşadan və qoruyan bir xalqa çevirir

- *Azərbaycan dünyada tolerantlıq nümunəsi yaradan unikal ölkədir. Sizcə, bu dəyəri biz xaricdə kifayət qədər göstərə bilmişikmi?*

- Bəli, Azərbaycan coğrafi olaraq Qərb və Şərqin, Şimal və Cənubun kəsişməsində yerləşdiyindən müxtəlif mədəniyyətlərin sintez olunduğu unikal bir ölkədir. Haraya getsəm, öz mədəniyyətimizə bənzər cizgilər görürəm, bu da onu göstərir ki, biz təkcə tolerantlıqla deyil, həm də mədəni çoxşaxəliliklə seçilirik. Multikulturalizm uzun illərdir dövlət siyasəti kimi uğurla icra olunur və dövlətçilik tariximiz üçün çox önəmlidir. Multikulturalizm bizi sadəcə müxtəlifliyi qəbul edən deyil, onu yaşadan və qoruyan bir xalqa çevirir. Düşünürəm ki, biz bu dəyəri bütün dünyaya göstərə bilirik.

### “Artıq bir sıra ölkələr soydaşlarımızın Qərbi Azərbaycana qayıdış hüququnu tanıyır”

- *Məlumdur ki, Qarabağ zəfərimiz regionda yeni reallıqlar yaratdı. Mühüm reallıqlardan biri Qərbi Azərbaycana qayıdışdır. Artıq bu sahədə konsepsiya sənədi də hazırdır. Soydaşlarımızın tarixi yurda qayıdışının hüquqi əsaslandırması üçün nə kimi işlər görməliyik? Bu məsələni beynəlxalq platformalarda müzakirəsinə necə baxırsınız?*

- Beynəlxalq platformalarda bu məsələnin müzakirəsi son dərəcə vacibdir. Çünki bu, təkcə bir dövlətin deyil, beynəlxalq humanitar hüququn, insan hüquqlarının və tarixi ədalətin məsələsidir. Artıq bir sıra dost və tərəfdaş ölkələr, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər bu istiqamətdə Azərbaycanı dəstəklədiklərini bəyan ediblər və soydaşlarımızın qayıdış hüququnu tanıyırlar. Bu istiqamətdə Azərbaycan diplomatları hazırda olduqca məqsədyönlü və effektli fəaliyyət göstərirlər. Qərbi Azərbaycan İcmasının fəaliyyətini də, xüsusilə təqdirəlayiq hesab edirəm.

### Biz beynəlxalq hüququn kiçik subyekti olan bir ölkə yox, onu formalaşdıran regional lider dövlətə çevrilməkdəyik

- *Gələcək hədəfləriniz? Beynəlxalq hüquq sahəsində Azərbaycana gələcəkdə nə kimi töhfələr verməyi düşünürsünüz?*

- Londonda beynəlxalq hüquq üzrə ixtisaslaşmış bir hüquq firmasında beynəlxalq hüquqşünas kimi işə başlayıram. Məqsədim beynəlxalq hüquq sahəsində çalışan mütəxəssislərdən ibarət beyin mərkəzi yaradaraq beynəlxalq hüququn müxtəlif mövzuları üzrə araşdırmalar aparmaqdır. Bunun üçün böyük potensial var. Artıq suverenliyini bərpa etmiş bir dövlət olaraq, biz beynəlxalq hüququn kiçik subyekti olan bir ölkə yox, onu formalaşdıran regional lider dövlətə çevrilməkdəyik. Bunu reallaşdırmağa ən böyük töhfə verən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

- *Müsahibəyə görə minnətdarlıq edir, təhsil, ictimai-siyası fəaliyyətlərinizdə bol uğurlar arzulayıram.*

**Oruc MUSTAFAYEV**

# "Konstitusiya və Suverenlik İli"

"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir. Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".



"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından

## Ümumi təhsilin milli ideyası

## tələbyönlü və ləyaqətli vətəndaş tərbiyəsi...

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi uzaqgörənlik nümunəsi olan müdrik fikridir ki, "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır". Bu konseptual müddəanı rəhbər tutaraq, həmin Sərəncamda qeyd edildiyi kimi, "... kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Bu qürurverici hadisədən ötən bütöv bir qərinə dönəmində ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi fəaliyyət sahələrində müstəsna inkişafa nail olunması birmənalı qəbul edilir. Ölkəmizin ərazi bütövlüyü və suverenliyini, uzun müddət yurd həsrəti ilə yaşamış vətəndaşlarımızın da konstitusion hüquqlarının tam bərpası, şübhəsiz, nailiyyətlərimizin zirvəsidir, möhtəşəm tarixi zəfər salnaməsinin parlaq səhifəsidir. Millətimizin qürur və iftixar mənbəyinə çevrilmiş bu əzəmətli qələbənin memarı, təbii ki, Müzəffər Ali Baş Komandan - Azərbaycan Prezidenti, onu döyüş meydanlarında reallaşdıranlar isə şanlı ordumuz, Azərbaycan məktəblərinin və müəllimlərinin tərbiyə etdiyi qəlbi Vətən eşqi ilə döyünən əsgər və zabitlər olmuşdur. Lakin bu misilsiz qələbədən nə qədər ruhlanıb nikbinləşsək də, indiki nəsli əvəz edəcək gələcək nəsillərin xalqımızın milli-mənəvi, əxlaqi keyfiyyətlərini yaşadan dəyərlər ruhunda tərbiyəsi bu gün hər zaman olduğundan daha artıq dərəcədə taleyüklü problem kimi ön plana çəkilməlidir.



**Aydın ƏHMƏDOV,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim*

Dövlət müstəqilliyini bərpa etmiş ölkəmizin bugünkü ümumi təhsil sistemi xalqımızın mütərəqqi maarifçilik ənənələri və müasir dövrün qabaqcıl təhsil ideyaları əsasında formalaşmış və inkişaf etməkdədir. Təsadüfi deyil ki, ölkəmizin "Təhsil haqqında" Qanununda fərdin müasir bilik, bacarıq və səriştələrə yiyələnməsi, cəmiyyətdə rəqabətədavamlı və tələbatyönlü olması ilə yanaşı, onun milli-mənəvi dəyərlərə, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq ləyaqətli vətəndaş və şəxsiyyət olaraq yetişdirilməsi tələbi konseptual hüquqi əsas və prioritet istiqamət olaraq təhsilin ən ümdə vəzifələri sırasına daxil edilmişdir. Buna görə də ümumi təhsillə bağlı bütün təşkilati-normativ səciyyə daşıyan sənədlərin, dövlət təhsil standartlarının, dərslik və dərs vəsaitlərinin, metodik tövsiyələrin, təlim texnologiyalarının, pedaqoji-metodik fəaliyyətlərin məzmun və mahiyyətində "tərbiyəolunma", tərbiyəedicilik" komponentlərinin xüsusi çəkisinin artırılması və gücləndirilməsi daim əlahiddə diqqət tələb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 fevral 2024-cü ildə keçirilmiş andiçmə mərasimindəki nitqində mənəvi-əxlaqi məsələlərlə bağlı irəli sürdüyü müddəalar, əslində, sosial-humanitar və digər mərkəzi icra hakimiyyəti orqanları tərəfindən bu sahədə həyata keçirilməsi fəaliyyətlərin əsasını təşkil edir: "Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun... Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır... Ona görə gənclərimizin tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".

Tarixə nəzər salsaq, hələ orta əsrlərdən etibarən müqəddəs "Quran"dan qaynaqlanan ideyalar üzərində qurulmuş müsəlman Şərqinə məxsus həyat fəlsəfəsində mənəvi tərbiyə, əxlaqi dəyərlər cəmiyyətin təşəkkülündə, insanların, xüsusilə də gənclərin milli, vətənpərvər ruhda formalaşmasında öncül mövqeyə malik olmuşdur. Təsadüfi deyil ki, "Orta əsr Şərq təsəvvürlərinə görə, tərbiyəsiz bilik - odunsuz ocaq, biliksiz tərbiyə - bədənsiz ruh kimidir" (F.Rüstəmov, Pedaqogika tarixi, Bakı, "Elm və təhsil", 2010, səh. 136) anlamında qəbul edilmişdir. Məşhur türk alimi və mütəfəkkiri Əbdülfəttah Şahinin də bir ibrətamiz fikrini xatırlatmaq yerinə düşər: "Məktəblərdə ən azı digər dərslər qədər tərbiyə və millilik üzərində dayanılmalıdır ki, Vətəni cənnətə çevirə biləcək sağlam ruh və sağlam xarakterli nəsillər yetişə bilsin". Çünki "Hər işin ibtidası tərbiyədir" (Mirzə Ələkbər Sabir - dahi Azərbaycan şairi), "Bütün millətin rifah halı uşaqların tərbiyəsindən asılıdır" (Con Lokk - ingilis filosofu və pedaqoqu).

Heç şübhəsiz, əsrlər bir-birini əvəz etsə də, dünyanın ictimai-siyasi, ideoloji mənzərəsi dəyişikliklərə məruz qalsa da, xalqımızın milli adət-ənənələrə, mənəvi-əxlaqi dəyərlərə bağlılığı dəyişməz qalmaqdadır. Nahaq yerə deməyiblər ki, "Bütün insani dəyərlərin təməli əxlaqdır" (Albert Eynşteyn - dahi alim, filosof). Bununla belə, həyati məsələlərə müxtəlif mövqelərdən yanaşmaların yarandığı, qloballaşma proseslərinin təsir dairəsinin getdikcə daha sürətlə genişləndiyi indiki dövrdə milli dünyagörüşümüzlə və əxlaqi münasibətlərimizlə bir araya sığmayan meyillər istər-istəməz cəmiyyətimizə yol tapır ki, bunlar da daha çox nisbətən iradəcə zəif, sadəlövh uşaq və yeniyetmələrin, gənclərin psixologiyasına, mənəviyyatına təsirsiz ötüşmür. Xüsusilə son vaxtlar bəzi yeniyetmə və gənclərdə müşahidə olunan laqeydlik, hörmətsizlik, mərhəmətsizlik, hətta amansızlıq və intihar halları ciddi narahatlıq doğurmaqdadır. Qəribədir ki, bu cür hallar baş verdikdə "günahkar" axtarışına, "qınaq obyektləri" tapılmasına başlanılır. Halbuki rast gəlinən bu və ya digər belə faktlara qarşı "birdəfəlik tədbir" görüb təsirsiz nəsihətlərlə kifayətlənmək əvəzinə problemə kompleks yanaşmaq, fəsadların törəmə səbəblərini real prizmadan təhlil edərək onları obyektiv qiymətləndirib aradan qaldırılması yolları haqda düşünülməlidir.

Kütləvilikdən uzaq olsa da, cəmiyyətimizdə mövcud olan bir sıra ikrah doğuran hadisələr, o cümlədən, davamlı ailə münaqişələri, valideynlərdən hər hansı birinin ailədən uzaqlaşması nəticəsində övladlarının himayəsiz və maddi çətinliklər içərisində qalması, uğursuz nikahlar, həmçinin aldadıcı xarakter daşıyan qeyri-rəsmi vətəndaş nikahları, valideynlərin uşaqlarını zorla təhsildən uzaqlaşdırıb kənar işlərə cəlb etmələri və bununla da bəzilərinin, xüsusilə də qızların nəinki tam orta, hətta ümumi orta təhsil ala bilməməsi, səbatsız valideynlərin övladlarının müəyyən peşəyə, sənətə yiyələnməsi barədə düşünməməsi, qız uşaqlarının məcburən ərə verilməsi, reytinq xatirinə bəzi telekanalların uğursuz insan münasibətlərini, eləcə də əxlaqi dəyərlərdən uzaq hərəkətləri şou xislətli verilişləri vasitəsi ilə ictimailəşdirmələri və digər bu kimi faktlar cəmiyyət həyatında mənəvi-psixoloji, pedaqoji iqlimə, uşaq və yeniyetmələrin mənəvi durumuna müstəsna dərəcədə mənfi təsir göstərən amillərdir.

Fikrimizcə, müşahidə olunan həmin problemli məsələlər ətrafında təhsil, mədəniyyət, səhiyyə, hüquq sistemləri və KİV-in nümayəndələrinin, din xadimlərinin, həmçinin digər maraqlı tərəflərin iştirakı ilə işgüzar müzakirələrin keçirilməsi, konstruktiv təkliflər əsasında perspektiv fəaliyyətləri hədəfləyən mükəmməl bir sənədin, məsələn, "Azərbaycan Respublikasında uşaq və gənclərin milli-mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyə olunması sisteminin daha da təkmilləşdirilməsi tədbirləri haqqında" Dövlət Proqramının qəbul olunması, burada irəli sürülən müddəalarla bağlı təhsil, ailə, mədəniyyət, səhiyyə və hüquq sahələri üzrə qanunvericilik aktlarında zəruri dəyişikliklərin edilməsi məqsədəuyğun sayılardı.

Bununla əlaqədar ümumi təhsilə yönələn məsələləri diqqətə çatdırarkən, ilk növbədə, hesab edirik ki, indi qüvvədə olan "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" 14 il bundan əvvəl qəbul edildiyindən hazırda ölkəmizin ümumi təhsil müəssisələrinin fəaliyyətinin dövlətin çağdaş dövrdəki təhsil siyasəti əsasında tənzimlənməsinə, yerli təhsili idarəetmə orqanlarının, məktəb rəhbərlərinin, pedaqoji işçilərin, valideynlərin və təhsil prosesinin digər aidiyyəti iştirakçılarının hüquq və vəzifələrinin müasir çağırışlar, xüsusilə də uşaq və yeniyetmələrin azərbaycançılıq ideologiyası, milli ruh, milli əxlaq, şəxsiyyətyönlü dəyərlər əsasında tərbiyə edilməsinin prioritetliyi nəzərə alınmaqla dəqiqləşdirilməsinə xidmət edən, eləcə də təhsilalanların təhsil prosesinin bərabərhüquqlu iştirakçısı olmalarını, təlim-tərbiyə prosesinin keyfiyyətinin təmin edilməsində məsuliyyət daşımalarını, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə uyğun sağlam həyat tərzi keçirmələrini, nümunəvi davranışa və humanist münasibətə malik olmalarını, ölkəmizə edilən haqsızlıqlara qarşı barışmaz mövqe tutmalarını hüquqi cəhətdən əsaslandıran təkmil bir normativ sənədin ərsəyə gətirilməsi zərurəti yaranmışdır. "Təhsil haqqında" Qanuna görə, ümumi təhsil müəssisələri sırasına daxil edilmiş ibtidai, ümumi orta, tam orta ümumtəhsil məktəbləri; istedadlı uşaqlar üçün ümumtəhsil məktəbləri; ümumtəhsil internat məktəbləri; lisey və gimnaziyalar öz təyinatı və fərqli xüsusiyyətləri ayrıca əhatə olunmaqla yeni direktiv xarakterli bu sənədin "Ümumi təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi" adlandırılması daha məntiqlidir. Düşünmək olar ki, həmin qanunvericilik aktının təsdiqi həm də belə bir müddəanın pedaqoji aləmdə qəbuluna möhkəm zəmin yaradar ki, təhsil müəssisəsinin, pedaqoji işçilərin fəaliyyətinə verilən qiymətin xüsusi çəkisi, hər şeydən əvvəl, şagirdlərin mənəvi-psixoloji, fizioloji cəhətdən sağlam və dayanıqlı, milli dəyərlərə sadiq, mübariz və vətənpərvər ruhlu tərbiyə olunması, onlarda şəxsiyyətyönümlü keyfiyyətlərin formalaşdırılması istiqamətində atılan addımların nəticələri ilə ölçülür. Bu mənada, məlum həqiqətdir ki, həmin vəzifələrin həyata keçirilməsinə məsuliyyət daşıyan ümumi təhsil məktəbinin forma və məzmunca təkmilləşdirilməsi hazırkı dövrün reallığına çevrilmişdir. Yeri gəlmişkən, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar dövrün çağırışlarına cavab verən təkmil məktəb-təhsil modellərinin yaradılması tələbi bunu bir daha sübut edir.

Bununla belə, mövcud dönəmdə uşaq və yeniyetmələrin təlim-tərbiyəsinin təşkili kimi taleyüklü missiyanı həyata keçirə biləcək orta statistik ümumtəhsil məktəbi, fikrimizcə, aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

* məktəbdə normal və təhlükəsiz təhsil şəraiti yaradılmışdır, peşəkar səviyyədə təcrübəli rəhbər və ixtisaslar üzrə səriştəli pedaqoji kadr heyəti, ehtiyacları ödəyəcək maddi-tədris baza, İKT avadanlığı, tibb və internet xidməti mövcuddur;

* bütövlükdə pedaqoji kollektiv və texniki-yardımçı heyət vahid məqsədə xidmət edən komanda ruhunda birləşmişdir. Valideynlərlə işgüzar pedaqoji-psixoloji əlaqələr yaradılmışdır, vaxtaşırı onlarla təhsil məsələlərinə aid maarifləndirici tədbirlər aparılır.

* məktəb yeniliklərə açıqdır, faydalı pedaqoji ideyaların öyrənilib şəraitə uyğun tətbiqində maraqlıdır, təşəbbüskar və yaradıcı fəaliyyət dəstəklənir və dəyərləndirilir;

* məktəbdə qarşılıqlı hesabatlılığa, məsuliyyət bölgüsünə və fəaliyyətin monitorinqinə əsaslanan kollegial idarəetmə sistemi yaradılmışdır, ümumi təhsil sahəsi üzrə aktual məsələlərin, qarşıya qoyulmuş vəzifələrin kollektivə çatdırılmasında, təlim-tərbiyə işlərinin məqsədyönlü planlaşdırılması, təşkili və keyfiyyətli həyata keçirilməsi baxımından mövcud vəziyyətin təhlil olunub qiymətləndirilməsi və zəruri təkliflərin hazırlanmasında ali idarəetmə orqanı kimi Pedaqoji Şuranın imkanlarından səmərəli istifadə edilir;

* bütövlükdə təhsil prosesinin - müəllimlərin fəaliyyətinin, ibtidai, ümumi orta, tam orta təhsil səviyyələrində fənlərin tədrisi vəziyyətinin, şagirdlərin fərdi xüsusiyyətlərinin öyrənilib obyektiv qiymətləndirilməsi sayəsində alınan nəticələr keyfiyyətin idarəolunmasında əsas indikatorlar kimi nəzərə alınır və bunlara uyğun perspektiv fəaliyyət istiqamətləri müəyyənləşdirilir;

* məktəb psixoloqu, sinif rəhbərləri, müəllimlər arasında işgüzar əlaqə mövcuddur, birgə fəaliyyət qaydasında şagirdlərlə psixoloji müşahidələr, diaqnostik qiymətləndirmələr aparılır, meyil və maraqlarının diferensiasiyası həyata keçirilir, məktəbdaxili olimpiadalar, müsabiqələr, müzakirələr təşkil edilir, nəticələr ümumiləşdirilir, təhlil olunur və yekunları barədə valideynlərin də məlumatlandırılması təmin edilir;

* şagirdlərin müstəqil olaraq əlavə bilik və məlumatlar əldə etmək, ilkin tədqiqatçılıq meyillərini stimullaşdırmaq məqsədilə onların milli tariximizin əlamətdar hadisələri və görkəmli şəxsiyyətləri, milli-mənəvi dəyərlər, ölkəmizin flora-faunasının özəllikləri və s. mövzularda təqdimatları təşkil edilir və rəğbətləndirilir;

* "uşağın təlimdə müvəffəqiyyətsizliyə uğraması" fikri müəllimin vəzifəsi və statusu ilə bir araya sığmadığı üçün şagirdin (şagirdlərin) təkrar eyni sinifdə saxlanması pedaqoji etikaya zidd hərəkət kimi qiymətləndirilir, ibtidai siniflərdə ev tapşırığı verilməsindən imtina edilir və s.

Ümumi təhsil məktəblərində təhsil prosesinin tamlığı onun öyrədici, tərbiyəedici, inkişafetdirici xarakterdə olması ilə müəyyənləşirsə, hesab edirik ki, bu rəsmi dövlət tələbinin reallaşdırılması istiqamətlərini özündə birləşdirən konseptual səciyyəli ümumi təhsilin dövlət standartları və ona nəzərən hazırlanmış fənlər üzrə məzmun standartları ilə bağlı peşəkar səviyyəli araşdırmaların aparılmasına ehtiyac duyulur. Bu prosesdə belə suallara cavab axtarmaq lazımdır ki, müasir dövrün tendensiyaları nəzərə alınmaqla həmin standartlarda deklarativ (məlumat xarakterli), prosedural (icraya dair qaydalar), kontekstual (problemin həlli yolunu əhatə edən) biliklərin faiz nisbəti necə müəyyən olunub; idraki, ünsiyyət, psixomotor bacarıqların əhatə dairəsi hansı səviyyədədir; uşaq şəxsiyyətini şərtləndirən dəyərlərin formalaşmasına məzmun standartları nə dərəcədə xidmət göstərir və bunlarda ifadə edilən zəruri biliklərin mahiyyəti dövrün tələbatı ilə mütənasibdirmi; həmçinin fənlər üçün müəyyənləşdirilmiş məzmun şagirdlərin inkişafını, maraqlarını və mənəvi ehtiyaclarını ödəmək iqtidarındadırmı və s. Şübhəsiz, belə təhlillər ümumi təhsilin hər bir səviyyəsi üzrə aparılmalıdır, lakin mübaliğəsiz desək, bu prosesdə ümumi təhsilin əsas bünövrəsi sayılan, millətin genofondunun formalaşdırılmasının ilk dövrü hesab olunan ibtidai təhsil mərhələsi daha çox xüsusi diqqət və bəsirətli yanaşma tələb edir, çünki yuxarı səviyyələrdə təhsilin keyfiyyəti, uşaqların davranışı barədə hər hansı bir mülahizə yürüdülərkən, ilk növbədə, bu siniflər üzrə ibtidai təhsilin real vəziyyəti xatırlanmış olur. Həm də doğru fikirdir ki, ibtidai sinif şagirdlərinin təlim-tərbiyəsinin nəticələri onun müəlliminin pedaqoji səviyyəsindən xəbər verir. Məhz peşəkar müəllim tərəfindən təşkil edildiyi halda, uşaqların sosiallaşması və mənəvi-əxlaqi cəhətdən formalaşmasında, qayda-qanun anlayışlarının dərkində və onlara əməl etməsində, ətraf aləmə, insanlara qayğılı, humanist münasibətin yaranmasında ibtidai təhsil, bir növ, tənzimləyici və səfərbəredici rol oynayır.

**(Ardı var)**

# XXI əsrin bacarıqları qlobal təhsil gündəminin əsas mövzularındandır

Azərbaycan müəllimi” Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tədris işləri üzrə prorektoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Eldar Aslanov ilə müsahibəni təqdim edir.



## “ADPU-2030” Strateji İnkişaf Planında universiteti ölkədə sosial-humanitar və pedaqoji elmlər sahəsində ixtisaslaşmış bir elmi mərkəzə çevirmək hədəf kimi müəyyən olunub

### “Pedaqoji Universitet ciddi islahatlara imza atıb”

– *Eldar müəllim, ADPU ölkəmizin ən qocaman ali məktəblərindən biridir. Xüsusilə müəllim hazırlığı dedikdə ilk olaraq sizin universitetiniz göz önünə gəlir. Pedaqoji sahədə aparılan kadr islahatları və onların təhsil sisteminə təsiri haqqında nə deyə bilərsiniz?*

– Azərbaycan Dövlət Pedaqoji Universiteti Bakı Dövlət Universitetindən sonra ölkəmizin ali təhsil sistemində ən yaşlı təhsil ocaqlarından biridir. Ali məktəbdən bu günə qədər 180 mindən çox tələbə məzun olub.

Pedaqoji Universitet həm XX əsrin əvvəllərində ölkəmizdə savadsızlıqla mübarizədə, həm də 1990-cı illərdə milli özünüdərk və ictimai-siyasi proseslərin önündə yer alan mühüm təhsil müəssisəsi olub.

XXI əsrdə qarşımızda yeni çağırışlar dayanır. Azərbaycan müstəqillik qazandıqdan sonra təəssüf ki, obyektiv səbəblərdən təhsil sahəsində lazımi islahatları arzuolunan səviyyədə həyata keçirə bilmədik. Şükürlər olsun ki, Azərbaycan Ordusunun qüdrəti və Ali Baş Komandanın rəhbərliyi ilə ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildikdən sonra Azərbaycan təhsilinin qarşısında da yeni imkanlar və vəzifələr meydana çıxıb. Bu vəziyyət, sözsüz ki, pedaqoji kadr hazırlığında da öz əksini tapmalı və bu sahədə ciddi addımlar atılmalıdır. Bu dövr bizim üçün milli əhəmiyyət daşıyan tarixi günlərdir. Zəfər qazanmış xalqımız və dövlətimiz işğaldan azad olunmuş bölgələri yenidən qurur, inkişaf etdirir.

Eyni zamanda, dünyada pandemiyadan sonrakı dövr, rəqəmsallaşma prosesləri, süni intellektin cəmiyyət həyatının bütün sahələrinə, o cümlədən təhsil sisteminə təsiri təhsil və pedaqoji kadr hazırlığı sahəsində islahatları qaçılmaz zərurətə çevirib.

Pedaqoji Universitet, bildiyiniz kimi, 2021-ci ildə 100 illiyini qeyd etdi. Yubiley çərçivəsində universitetin inkişafına dair əhatəli strateji plan hazırlandı. Qeyd etməliyəm ki, 2015-ci ildə ölkə Prezidentinin qərarı ilə iki aparıcı pedaqoji kadr hazırlayan ali məktəb – Azərbaycan Müəllimlər İnstitutu Pedaqoji Universitetə birləşdirildi. Hazırda universitetimiz şəbəkələşmiş şəkildə fəaliyyət göstərir, ölkənin müxtəlif regionlarında 5 filialı mövcuddur. Eyni zamanda, universitetimizə kollec və baza məktəbi də daxildir. Bugünkü vəziyyətdə 21300 çox təhsilalanı və təhsilverəni birləşdirən böyük bir ailəyə çevrilib.

Bu ailə XXI əsrdə daha inamla, daha möhkəm addımlarla irəliyə doğru gedir. ADPU institusional akkreditasiyadan uğurla keçdikdən sonra ölkənin ərazi bütövlüyünü təmin etməsi və postpandemiya dövrü bizə 2030-cu il üçün baxışlarımızı formalaşdırmaq imkanı və yeni çağırışlara institusional baxışlar formalaşdırmağa imkan verdi. Bu baxışların mərkəzində bir neçə əsas istiqamət dayanır. Əgər konkret desək, birincisi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığıdır. İllər keçdikcə pedaqoji sahədə çalışan mütəxəssislərə olan tələblər dəyişir və bu dəyişikliklərə uyğunlaşmaq zəruridir.

XXI əsrin bacarıqları artıq qlobal təhsil gündəminin əsas mövzularındandır. Yaşıl təhsil isə iqlim dəyişiklikləri fonunda yeni və olduqca vacib bir çağırış kimi ortaya çıxır. Dünyada iqlim gündəliyinin təhsilə təsiri yeni yanaşmalar tələb edir.

Eyni zamanda, bu gün "Z" nəslinin təhsili qarşımızda tamamilə fərqli tələblər qoyur. Rəqəmsallaşma həyatımızın ayrılmaz hissəsinə çevrildikcə sosial-emosional zəkanın inkişafı, müvafiq bacarıqları formalaşdıracaq təhsil komponenti yeni gündəm kimi qarşımıza çıxır.

Multidissiplinarlıq, STEAM və rəqəmsal texnologiyaların cəmiyyətimizin bütün sahələrinə, hər bir insanın gündəlik həyatına təsir etdiyini nəzərə alsaq, rəqəmsal bacarıqlar və STEAM yanaşması da pedaqoji hazırlığın mühüm istiqamətlərindən birinə çevrilib.

Bu kontekstdə Pedaqoji Universitet 2020-ci ildən etibarən ciddi islahatlara imza atıb. Universitetin idarəetməsində şəffaflıq prinsiplərinə əsaslanaraq struktur islahatlar həyata keçirilib.

Beynəlmiləlləşmə siyasəti çərçivəsində bir sıra ixtisaslar üzrə rus və ingilis bölmələri açılıb, xaricdə təhsil almış, müasir təhsil yanaşmalarını mənimsəmiş gənc pedaqoqlar universitetə cəlb olunub.

2016-2025-ci illər dövrünə nəzər salsaq, universitetin professor-müəllim heyətinin orta yaş göstəricisinin əhəmiyyətli dərəcədə gəncləşdiyini görərik.

Baxın, bu qeyd etdiyim istiqamətlər üzrə ADPU son illərdə əhəmiyyətli işlər görüb. Təbii ki, görülən hər iş qarşıda yeni vəzifələr doğurur.

### “Pedaqoji Universitet məzunlarının məşğulluq göstəricilərinə görə ölkədə dördüncü yerdə qərarlaşıb”

– *Sizcə, pedaqoji kadrların əmək bazarında layiqli yer tutması üçün hansı mexanizmlər tətbiq olunmalıdır?*

– Şübhəsiz ki, bu sahədə mexanizmlər var və tətbiq olunur. Amma onların daha da genişləndirilməsi istiqamətində bəzi təkliflərim ola bilər. Əvvəla, məzun hazırlığında əmək bazarı ilə daha sıx əməkdaşlıq qurulmalıdır. 2020-ci ildə təhsil proqramlarını hazırlayarkən biz bu əməkdaşlıqlar üçün ilk addımı atmışdıq. Xatırlayıram ki, “Twinning” layihəsi çərçivəsində 4 ixtisas üzrə pilot proqramların hazırlanması üçün əmək bazarının nümayəndələri ilə birgə çalışdıq. Eyni modeldən 2020-ci ildə bakalavr ixtisaslarının təhsil proqramlarını hazırlayarkən də istifadə etdik. Sevindirici haldır ki, bu istiqamətdə işlər davam etdirilir.

Bu yaxınlarda elm və təhsil naziri Emin Əmrullayevin əmri ilə yeni təhsil proqramlarının hazırlanması üzrə komissiya yaradılıb. Artıq müvafiq sahələr üzrə ixtisas komissiyaları formalaşdırılıb. Bu da ali təhsil proqramlarının əmək bazarının real tələbləri ilə daha çox uzlaşdırılmasına ciddi təkan verəcək.

Bizim təmsil olunduğumuz Təhsil ixtisasları üzrə İşçi Qrup 21 ali təhsil müəssisəsinin nümayəndələrini bir araya gətirir. Söhbət pedaqoji kadr hazırlayan ali təhsil müəssisələrindən gedir. Bu prosesə əmək bazarının nümayəndələri də yaxından cəlb olunub. Onların sırasında həm Bakıdan, həm də regionlardan olan nümayəndələr – dövlət və özəl, ümumi və məktəbəqədər təhsil müəssisələrinin, sosial-psixoloji xidmət sahələrinin təcrübəli ekspertləri, vətəndaş cəmiyyəti nümayəndələri yer alır.

Hazırda ilk mərhələdə magistratura səviyyəsində təhsil proqramlarının plan əsasında hazırlanması prosesi gedir. Artıq bu istiqamətdə ilkin işlər tamamlanmaq üzrədir, ixtisaslaşmalar formalaşdırılıb və hər bir mərhələdə əmək bazarının rəyləri əsas götürülür.

İkinci mühüm istiqamət isə əmək bazarı ilə təkcə təhsil məzmununun hazırlanmasında deyil, həm də bu məzmunun icrasında sıx əməkdaşlıqdır. Bu, ilk baxışda təcrübə proqramları ilə məhdud görünə bilər, lakin biz bunu sadəcə pedaqoji təcrübə ilə yekunlaşdırmaq fikrində deyilik. Əksinə, tələbələrin ixtisaslarına uyğun olaraq peşəkar kimi formalaşması üçün əmək bazarının təklif etdiyi müxtəlif sertifikat proqramları, təqaüd imkanları və praktik məşğələlərə yönəldilməsi vacibdir. Bu məqsədlə tələbələri həmin imkanlara fəal şəkildə cəlb etməyə çalışırıq.

Sevindirici haldır ki, Pedaqoji Universitet məzunların məşğulluq göstəricilərinə görə ölkədə dördüncü yerdə qərarlaşıb. Bu, bizim üçün həm stimuldur, həm də tətbiq etdiyimiz mexanizmlərin səmərəsini göstərir.

Dövlət İmtahan Mərkəzinin növbəti hesabatına əsasən, ali məktəblərin dövlət qulluğuna qəbul imtahanlarındakı nəticələrinə görə ADPU yenə də ali təhsil müəssisələri arasında 4 və 5-ci yerləri bölüşür. Bu göstərici onu deməyə əsas verir ki, Pedaqoji Universitet yalnız məktəblər üçün müəllim hazırlayan ali məktəb deyil, məzunlarımız dövlət qulluğuna da maraq göstərir və bu sahədə də uğurlar əldə edirlər.

Vacib məqamlardan biri məzunların növbəti təhsil pillələrinə keçididir. 2024-cü il məzunlarımız arasında (təxminən 2200 nəfər) 812 nəfər magistratura səviyyəsində təhsilini davam etdirib. Bu, ümumi məzunların 30-35%-dən çox hissəsini təşkil edir. Onlardan 70-ə yaxını isə magistratura təhsilini xarici ölkələrdə davam etdirir.

### Əmək bazarı ilə effektiv əməkdaşlıq

– *Bəs əmək bazarı ilə əməkdaşlıqda hansı yeni alətləri təklif edərdiniz?*

– Əmək bazarı ilə daha effektiv əməkdaşlıq üçün bir sıra yenilikçi alətlərin tətbiqini vacib hesab edirəm:

*Dual təhsil proqramlarının genişləndirilməsi* – tələbə eyni anda həm təhsil alır, həm də əmək bazarında real təcrübə qazanır. Bu sistem Almaniyada uğurla tətbiq olunur və müsbət nəticələr verir.

*İxtisas üzrə mentorluq və təcrübə proqramları* – Hər tələbəyə sahə üzrə bir əmək bazarı nümayəndəsi mentor kimi təyin olunur. Bu mentorlar tələbəyə real bazar gözləntiləri barədə istiqamət verir, onların inkişafına töhfə göstərir.

*Əmək bazarı ilə birgə fənn modullarının hazırlanması* – fənn proqramlarının müəyyən hissəsi əmək bazarının tərəfdaşları ilə birgə hazırlanır, onların praktik təcrübəsi nəzərə alınır.

*Əmək bazarının ehtiyaclarına dair illik monitorinqlər* – xüsusi platformalar vasitəsilə universitetlər əmək bazarının dəyişən tələblərini izləyir və bu tələblərə uyğun olaraq dərhal təhsil proqramlarında dəyişikliklər edə bilirlər.

*Əmək bazarı simulyasiya modulları* – virtual və ya fiziki mühitdə, tələbələrin əmək bazarında qarşılaşa biləcəyi real situasiyalar əsasında simulyasiya mərkəzləri yaradılır.

Bu istiqamətdə ən diqqətçəkən məqamlardan biri tələbələrimizin könüllülük fəaliyyətləridir. Onların müxtəlif tədbirlərdə, xüsusilə təhsillə bağlı layihələrdə könüllü iştirak etməsi vacib istiqamətlərdən biridir. Biz tələbələri bu cür təşəbbüslərə cəlb etməyə xüsusi önəm veririk.

### “Ötən il məzunlarımızın məşğulluq səviyyəsi 73% təşkil edib”

– *Pedoqoji universitetin məzunları müəllimlərin işə qəbulu (MİQ) və sertifikasiya imtahanlarında nə qədər uğurlu ola bilirlər? Bununla bağlı monitorinq aparmaq imkanınız olub?*

– Sertifikasiyanın nəticəsi ilə bağlı monitorinq aparırıq. İndividual olaraq hansı məzunumuzun nə qədər bal topladığını görə bilməsək də, sertifikatlaşdırmanı aparan qurumların açıqladığı nəticələrdə, xüsusilə sertifikasiyadan uğursuz keçən məzunların və ya müəllimlərin hansı təhsil müəssisələrində təhsil aldıqları ilə bağlı məlumatlar paylaşılır. Sevindirici haldır ki, uğursuz olanlar arasında ADPU-nun məzunlarına rast gəlinmir.

Digər bir istiqamət isə MİQ-in nəticələridir. Bu nəticələrdə biz fərdi göstəriciləri görə bilirik. Artıq aprelin sonlarından magistraturaya qəbul nəticələri açıqlanmağa başlayır. Buna görə biz son kursda təhsil alan tələbələrimizin həm magistratura nəticələrini, bir qədər sonra isə MİQ nəticələrini diqqətlə izləyirik.

Artıq 5-ci ildir ki, hər ilin oktyabr-noyabr aylarında keçirilən Elmi şuralarımızda keçən ilin məzunlarının məşğulluq göstəricilərini müzakirə edirik. Belə ki, məzunlarımızın nə qədərinin hərbi xidmətə yollandığını müəyyənləşdirir, onların adlarını qeyd edirik. Həmçinin məzunlarımızdan nə qədərinin MİQ müsabiqəsində iştirak üçün sənəd verdiyini, imtahan mərhələsində hansı nəticələr topladığını, test mərhələsini və müsahibəni uğurla keçərək təyinat alıb-almadıqlarını təhlil edirik.

Eyni zamanda, nə qədər tələbəmizin magistratura imtahanında minimum bal topladığını, ixtisas seçimi etdiyini və qəbul olduğunu izləyirik. Bununla yanaşı, tələbələrimizin xarici ölkələrdə magistratura təhsilinə sənəd verib-vermədiyini, hansı ölkələrə, ixtisaslara, universitetlərə və hansı təhsil səviyyəsində müraciət etdiklərini araşdırırıq.

Ötən il universitetimizin məzunlarının, magistratura təhsilinə qəbul olanlar və hərbi xidmətə yollananlar istisna olmaqla, məşğulluq səviyyəsi 73% təşkil edib. Bu, qənaətbəxş nəticədir, lakin hesab edirik ki, göstəricini yüksəltmək üçün gələcəkdə daha səylə çalışmalıyıq.

### “Pedaqoji ixtisaslara qəbul yaxın illərdə bir qədər azaldıla bilər”

– *Bölgələrdəki universitetlərin potensialının artırılması məsələsi Milli Məclisdə də zaman-zaman gündəmə gəlir. ADPU-nun da bölgələrdə beş filialı var. Bölgə təhsilini yaxşılaşdırmaq, tələbə qəbulunu stimullaşdırmaq üçün nələr etməliyik?*

– “ADPU-2030” Strateji İnkişaf Planı bu ilin 4 fevralında təsdiqlənib. Sənədin əsas istiqamətlərindən biri elə sizin sualınızda toxunduğunuz məqamlarla bağlıdır. Əslində, bu kontekstdə mən sizə strateji planımızdan da bəhs etmiş oluram.

Qeyd edim ki, Pedaqoji Universitet 2015-ci il akkreditasiya nəticələrinə əsasən, qeyri-pedaqoji ixtisasların əksəriyyətinin bağlandığı ali təhsil müəssisələrindən biri olub. Lakin 2016-cı ildə universitetə yeni rəhbərlik gəldikdən sonra ilk olaraq 2021-ci il üçün müəyyən edilmiş strategiyada, daha sonra isə “ADPU-2030” Strateji İnkişaf Planında əsas istiqamətlərdən biri kimi universitetin potensial və imkanlarının artırılması, onu tədricən ölkədə sosial-humanitar və pedaqoji elmlər sahəsində ixtisaslaşmış bir elmi mərkəzə çevirmək hədəfi müəyyən olunub.

Burada əsas məqamlardan biri odur ki, ölkədə Elm və Təhsil Nazirliyi tərəfindən pedaqoji ixtisaslara qəbul planı ildən-ilə optimallaşdırılır. Bu, həm müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi, həm də əmək bazarının real tələblərinə uyğunluğun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Hazırda ölkə üzrə 21 ali təhsil müəssisəsində hər il təxminən 10-11 min nəfər bakalavriat səviyyəsində pedaqoji ixtisaslara qəbul olur. Bu rəqəmlər yaxın illərdə bir qədər azaldıla bilər. Çünki əmək bazarının ehtiyacları nəzərə alınaraq, qəbul planlamasında tənzimləmələr aparılır və biz bunu artıq hiss edirik.

Ona görə də Pedaqoji Universitetin və onun filiallarının yalnız pedaqoji kadr hazırlayan ali məktəb olaraq fəaliyyət göstərməsi 2030-cu illərə qədər məqsədəuyğun hesab edilmir. Bu baxımdan ali təhsil müəssisəsinin əmək bazarındakı rəqabətədavamlı olması üçün kadr hazırlığı aparılan sahələrdə müəyyən korreksiyalar edilməlidir.

Gələcək dövrdə Pedaqoji Universitet və onun filialları yalnız pedaqoji ixtisaslar üzrə deyil, əmək bazarının tələblərinə uyğun olaraq digər istiqamətlərdə də mütəxəssis hazırlığı həyata keçirməlidirlər. Hədəf hazırda 100% pedaqoji kadr hazırlayan bu ali məktəbin 2030-cu ilə qədər tələbə qəbulunun təqribən 70%-nin pedaqoji ixtisaslara, 30%-nin isə əmək bazarına uyğun digər ixtisaslara yönəldilməsidir.

Məsələn, gələcəkdə “Kimya mühəndisliyi”, “İnformasiya texnologiyaları”, “Rəqəmsal media”, “Xarici dillər”, “Regionşünaslıq”, “Psixologiya”, “Dizayn”, filiallarda isə onların yerləşdiyi bölgənin əmək bazarının ehtiyac duyduğu ixtisaslar üzrə kadr hazırlığı da nəzərdən keçirilir. Bu ixtisasların hər biri müvafiq fakültələrin və filialların profilinə uyğun şəkildə formalaşdırılacaq.

### “Filiallarda yeni açılacaq ixtisaslar regionların sosial-iqtisadi ehtiyaclarına uyğun olmalıdır”

– *Filiallarda açılacaq yeni ixtisaslar üzrə pedaqoji kadrların cəlbi çətin olmayacaq?*

– Əlbəttə, bu proses asan olmayacaq. Bildiyiniz kimi, Elm və Təhsil Nazirliyinin Kollegiyası tərəfindən ali məktəblərdə yeni ixtisasların açılması üçün müəyyən olunmuş qaydalar və tələblər mövcuddur. Artıq ali məktəb olaraq qərar vermişik ki, qarşıdakı illərdə hər bir fakültə və filial qarşısında konkret bir vəzifə qoyulsun. Həmin qaydalara uyğun olaraq, ən azı bir yeni ixtisas üzrə tələb olunan sənədləri hazırlayıb təqdim etsinlər.

Təbii ki, bu proses yalnız ixtisasların müəyyənləşdirilməsi ilə bitmir. Əmək bazarının dərin və sistemli tədqiqi aparılmalıdır. Hər bir yeni ixtisas üzrə elmi-pedaqoji komanda formalaşdırılmalı, bu sahədə təcrübəli mütəxəssislər cəlb edilməlidir.

Yeni açılacaq ixtisaslar ölkənin ümumi sosial-iqtisadi inkişafı ilə yanaşı, filialların yerləşdiyi regionların sosial-iqtisadi ehtiyaclarına da uyğun olmalıdır. Məsələn, Quba, Şamaxı, Şəki, Cəlilabad və Ağcabədi filiallarımızda məhz həmin bölgələrin əmək bazarının tələblərinə uyğun ixtisaslar üzrə kadr hazırlığı prioritet hesab edilir.

Eyni zamanda, regionlarda ali təhsilə marağın artırılması da önəmli hədəflərimizdəndir. Bu, həm bölgələrdə yaşayan gənclərin ali təhsilə çıxış imkanlarına genişləndirmək, həm də paytaxtda yaşayan gənclərimizin regionlardakı tədris mühitində təhsil almağa təşviq olunması baxımından əhəmiyyətlidir. Bu məqsədlə region filiallarında maraqlı, rəqabətqabiliyyətli və əmək bazarının ehtiyaclarına cavab verən ixtisaslar üzrə proqramlar açılmalıdır.

Bu, təkcə bizim universitetin filialları ilə məhdudlaşmamalı, ölkənin digər regionlarında fəaliyyət göstərən ali təhsil müəssisələrinin də üzərinə düşən mühüm vəzifədir. Digər tərəfdən, bu prosesi əmək bazarının nümayəndələri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirməliyik.

Xüsusilə nəzərə almaq lazımdır ki, Bakı şəhəri və ətraf ərazilərin nəqliyyat infrastrukturu ilə bağlı qəbul olunmuş yeni Dövlət Proqramında regionlarda ali təhsil müəssisələrinin tələbə payının artırılması strateji hədəflərdən biri kimi müəyyən edilib. Bu baxımdan Pedaqoji Universitet olaraq biz də bu strateji hədəfə uyğun hərəkət edirik.

– *Bəs filiallarınızda hansı ixtisaslar üzrə əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı həyata keçirilə bilər?*

– Ümid edirəm ki, 2025-2026-cı tədris ilindən həm bu filiallarda, həm də Bakı şəhərində yeni ixtisasların açıldığının şahidi olacağıq. Təbii ki, bunun üçün yalnız ixtisasların müəyyənləşdirilməsi deyil, dəstək mexanizmləri, infrastrukturun gücləndirilməsi, elmi-tədqiqat potensialının artırılması da strateji planda əsas məsələlərdən biridir. Üçüncü vacib istiqamət infrastrukturun gücləndirilməsi və rəqəmsallaşmadır.

Yeni ixtisasların açılması, sadəcə kadr hazırlığına başlamaqla məhdudlaşmamalıdır. Bu prosesin davamlı və effektiv olması üçün müvafiq infrastrukturun yaradılması əsas şərtlərdən biridir. Bu baxımdan universitet rəhbərliyi olaraq əmək bazarı nümayəndələri, özəl sektor, banklar və dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində filiallarda zəruri infrastrukturun yaradılması istiqamətində təşəbbüslərlə çıxış edirik.

Yeni ixtisasların açılması üçün mövcud normativ sənədlərdə nəzərdə tutulan tələblər var və bu tələblərə uyğun olaraq təhsil infrastrukturu ilə yanaşı, sosial infrastruktur da qurulmalıdır. Tələbələrin yataqxana ilə təminatı, təcrübə imkanları, sosial həyatı və təhsil aldıqları sahə üzrə məzun olduqdan sonra işlə təmin olunmaları və ya karyera perspektivlərinin aydın olması bu sahədə kompleks yanaşmanı zəruri edir.

– *Sonda müəllimlərə nə demək istəyirsiniz?*

– Bütün müəllimlərimizə yalnız uğurlar arzulayıram.

Müəllimlik adını şərəflə daşıyan bütün həmkarlarıma demək istəyirəm ki, rəqabətə hazır olun! Müasir dövrdə müəllim olmaq həqiqətən də çətin və məsuliyyətli peşədir. Müəllim yalnız intellektual deyil, eyni zamanda, ciddi psixoloji və mənəvi hazırlığa malik olmalıdır. İnanıram ki, Azərbaycan müəllimi bu iradəni, bu məsuliyyəti şərəflə daşıyır və daşıyacaq.

**Yetər KƏRİMLİ**

"Sağlamlıq"

# "Erkən müdaxilə, düzgün diaqnoz"

Uşaq və yeniyetmələrin sağlamlığı hər bir cəmiyyətin diqqətdə saxladığı prioritet istiqamətlərdən biridir. Ölkəmizdə də böyüməkdə olan gənc nəslin sağlamlığı ilə bağlı məsələlər hər zaman aktual olaraq qalmaqdadır. Onların fiziki və psixoloji rifahı, gələcəkdə sağlam və sosial cəhətdən aktiv fərdlər kimi formalaşmaları üçün mütəmadi tibbi nəzarət və reabilitasiya tədbirləri son dərəcə vacibdir. Bu sahədə illərdir fəaliyyət göstərən Uşaq Bərpa Mərkəzinin yüzlərlə ailənin ümidi olmaqla yanaşı, minlərlə uşağın sağalmaq və cəmiyyətə inteqrasiya etməsində rolu danılmazdır. Elə Uşaq Bərpa Mərkəzinin baş həkimi, tibb üzrə fəlsəfə doktoru Cəmilə Talıbova ilə görüşümüz zamanı mərkəzin fəaliyyətinə, son illər uşaq və yeniyetmələrin sağlamlığı ilə bağlı bir sıra məqamlara toxunduq.



*Cəmilə TALIBOVA*

## "Uşaq yaşda formalaşan sağlam vərdişlər gələcəkdə bir çox xroniki xəstəliklərin qarşısını almağa yardım edir"

– *Cəmilə xanım, rəhbərlik etdiyiniz Uşaq Bərpa Mərkəzinin fəaliyyət istiqamətləri barədə bir qədər məlumat verməyinizi xahiş edirik.*

– 1987-ci ildən fəaliyyət göstərən Respublika Pediatriaya Mərkəzinin Uşaq Bərpa Mərkəzi ölkəmizdə uşaq reabilitasiyasını həyata keçirən və sağlamlıq imkanları məhdud uşaqların inkişafı ilə bağlı müəyyən problemlərin aradan qaldırılması ilə məşğul olan tibb müəssisəsidir. Mərkəzin yaradılmasında məqsəd tibbi, sosial, tədris-peşə reabilitasiya tədbirlərinin aparılması yolu ilə sağlamlıq imkanları məhdud uşaqların sosial statusunun bərpa edilməsini və onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Mərkəzdə tibbi bərpa və fizioterapiya şöbələri, həmçinin pedaqoji kabinet fəaliyyət göstərir.

Bizim Mərkəzimiz ən müasir tibb və diaqnostik cihazlar, reabilitasiya avadanlıqları ilə təchiz olunub. Təcrübəli həkim və mütəxəssislərimiz sağlamlıq imkanları məhdud uşaqlara yüksək səviyyədə tibbi və bərpa xidməti göstərirlər.

Mərkəzimiz yarandığı vaxtdan paytaxtla yanaşı, respublikanın bütün bölgələrindən olan sağlamlıq imkanları məhdud uşaqların da müayinə və bərpa müalicəsini yüksək peşəkarlıqla həyata keçirir. İndiyə qədər müəssisəmizdə sağlamlıq imkanları məhdud olan 50 mindən yuxarı uşağa reabilitasiya xidməti göstərilib.

Uşaq Bərpa Mərkəzi mütəmadi olaraq Uşaq Nevroloji Xəstəxanası, 2 saylı Uşaq Klinik Xəstəxanası, Protez və Ortopediya Mərkəzi, Əlillərin Bərpa Mərkəzi, həmçinin rayon və şəhər uşaq tibb müəssisələri ilə sıx əlaqə saxlayır.

Mərkəzimiz uşaq əlilliyi reabilitasiyası sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi əsasında yeni reabilitasiya metodları hazırlayır və təcrübədə müvəffəqiyyətlə həyata keçirir.

**"Reabilitasiya proqramlarımız tam fərdi şəkildə qurulur"**

– *Mərkəzdə əsasən hansı xəstəlikdən əziyyət çəkən uşaqlar müalicə alırlar?*

– Mərkəzimiz uşaqlar arasında LOR orqanları xəstəlikləri, tənəffüs yollarının, sinir sisteminin, mədə-bağırsaq orqanlarının, revmatik, allergik, nitq qüsuru müşahidə olunan, eləcə də dayaq-hərəkət sistemi xəstəliklərinin müalicəsini təmin edir. Burada psixoloji reabilitasiya da həyata keçirilir, ehtiyac yarandıqda psixoloq xidməti tətbiq olunur. Mərkəzə bərpa müalicəsinə ehtiyacı olan 18 yaşına kimi xəstələr sahə poliklinikaları tərəfindən göndərilirlər. Burada uşaqlar xüsusi prinsiplər əsasında çoxprofilli, yüksək dərəcəli ixtisaslaşdırılmış müalicə kursu keçirlər. Reabilitasiya proqramlarımız tam fərdi şəkildə qurulur. Hər bir pasiyent üçün onun yaşı, xəstəliyin ağırlıq dərəcəsi, yanaşı xəstəlikləri nəzərə alınmaqla il ərzində 3-6 mərhələdə fərdi reabilitasiya kursu tətbiq olunur. Xəstəliklərin müalicəsində müasir fizioterapiya cihazları, aerozol terapiyası, süni duzlaq şaxtası və digər üsullar istifadə edilir.

Onu da xüsusi vurğulayım ki, artıq valideynlərimiz öz övladları ilə bağlı ən xırda bir narahatlıq gördükdə dərhal həkimə müraciət edirlər və bu, çox yaxşı bir haldır.

Erkən müdaxilə, vaxtında qoyulan düzgün diaqnoz sağlamlığa daha bir addım yaxın olmaqdır. Əvvəlki illərlə müqayisədə hazırda mərkəzimizə səhhətində problemləri olan 1 yaşına qədər uşaqların müraciət sayında xeyli artım var. Bu da xəstəliyin vaxtından əvvəl aşkarlanması deməkdir. Müəssisəyə müraciət edən uşaqlarda sinir sistemi xəstəlikləri ilə yanaşı, digər somatik xəstəliklər də müşahidə edilir. Uşaq serebral iflicilə bağlı müraciətlər daha çox olur.

Mərkəzimizdə valideynlərlə də iş aparılır, onlara xəstə uşağın sağlamlığının bərpasına məsuliyyət hissi aşılanır və bu prosesdə aktiv iştiraklarına şərait yaradılır.

**Anlayış, səbir, empatiya...**

– *Uzun illərdir ki, uşaq reabilitasiyası sahəsində çalışırsınız. Bu sahənin ən böyük çətinlikləri və özəllikləri nələrdir?*

– Uşaq reabilitasiyası həm emosional, həm də professional baxımdan son dərəcə məsuliyyətli sahədir. Burada yalnız tibbi biliklə kifayətlənmək olmur. Anlayış, səbir, empatiya və uşaqlara sevgi də əsas şərtlərdəndir. Ən böyük çətinlik isə bəzən ailələrin ümidini itirmiş şəkildə bizə müraciət etməsidir. Və biz bu inamı geri qaytarmağa çalışırıq. Uşaqlara öz həyatlarını dolğun yaşamaq şansı vermək, onların potensiallarını üzə çıxarmaq və sonda buna nail olmağımız biz həkimlər üçün ən böyük mükafatdır.

– *Psixoloji və pedaqoji dəstək necə təşkil olunur?*

– Psixoloji reabilitasiya reabilitasiya prosesinin ayrılmaz hissəsidir. Psixoloq və loqopedlərimiz uşaqlarla fərdi və qrup şəklində işləyir. Pedaqoqlar isə təhsil və əmək terapiyasını həyata keçirərək uşaqlarda sosial vərdişləri formalaşdırır.

**Erkən yaşda xəstəlik düzgün müalicə olunmadıqda...**

– *Siz ixtisasca LOR həkimisiniz. Uşaqlarda ən çox rast gəlinən LOR xəstəlikləri hansılardır?*

– Adenoidlər, tez-tez təkrarlanan angina (xalq arasında buna boğaz ağrıları da deyirlər), otit kimi hallar uşaqlar arasında sıx müşahidə olunur. Son illər allergik mənşəli rinit və xroniki sinusit hallarının artdığını görürük. Erkən yaşda bu xəstəliklər düzgün müalicə olunmadıqda, uşaqda həm eşitmə, həm nitq inkişafı ləngiyə bilər.

Erkən diaqnoz və doğru müalicə baş verə biləcək riskləri minimuma endirir.

– *Bəzi valideynlər tez-tez angina olan uşaqlarının birdəfəlik bu ağrılarına son qoymaq üçün boğazında "artıq ət" var deyib, tez onu kəsdirirlər. Bəziləri isə ehtiyac duymayaraq uşaqlarını bu xəstəliklə bağlı müalicə edirlər. Yəni göründüyü kimi məsələyə münasibət birmənalı deyil.*

– Boğazda "qlanda" dediyimiz damaq badamcıqları əslində insan orqanizminə müxtəlif xəstəliklərin daxil olmasının qarşısını almaq kimi mühüm bir funksiyanı yerinə yetirir. Bu zaman onların özü sadə dildə desək, xəstələnir, lakin xaricdən ötürülən mikrobların orqanizmə daxil olmasına imkan vermirlər, bir növ möhkəm qoruyucu rolunu oynayırlar. Həmin vaxt həkimin məsləhəti ilə damaq badamcıqlarını müalicə yolu ilə sağaltmaq olur. Amma elə hal da ola bilər ki, damaq badamcıqları artıq öz funksiyasının öhdəsindən gələ bilmir və daxil olan mikroorqanizmlər, xüsusilə boğaz yolunda toplanmış streptokoklar artıq orqanizmə, qana və ya birbaşa ürək, qan-damar sisteminə daxil olur. Bu ürək qişalarını, qapaqları və yaxud orqanizmə keçirsə oynaqları, digər orqanları zədələyə bilər. Məhz o zaman soyuqlamış damaq badamcıqları müxtəlif terapevtik müalicələrlə, fizioterapevtik üsulların köməyi ilə sağalmırsa, qoruyucu funksiyasını yerinə yetirə bilmədiyi təqdirdə "artıq ətə" çevrilir və artıq cərrahi müdaxiləyə ehtiyac yaranır.



**Qulağa isti edilmiş duz torbasını qoymaq və ya yağ damızdırmaq...**

– *Cəmilə xanım, valideynlərin ev şəraitində, həkim məsləhəti olmadan tətbiq etdiyi türkəçarə üsullarına münasibətiniz necədir?*

– Bir həkim olaraq, əlbəttə ki, buna münasibətim yaxşı deyil. Təəssüf ki, bəzi ailələrimizdə belə hallar çox müşahidə olunur və ciddi fəsadlara gətirib çıxarır. Elmi əsasları olmayan bu metodlar bəzən xəstəliyi ağırlaşdırır. Qulağa isti edilmiş duz torbasını qoymaq, yağ damızdırmaq, boğaz ağrısının qarşısının alınması üçün tanış olmayan bir ot dəmləməsi vermək və ya özbaşına antibiotik istifadəsi uşağın səhhətinə ziyan vura bilər. Bunlar çox zaman əks effekt verir. Belə yanaşmalarla biz bəzən daha ağır nəticələrlə – eşitmə zəifliyi, allergik reaksiyalar, hətta daxili orqanlara təsir edən problemlərlə qarşılaşırıq. Mütləq həkimlə məsləhətləşilməlidir.

– *Aptekdən özbaşına alınan dərmanlar nə dərəcədə təhlükəlidir?*

– Belə bir yanaşma da çox təhlükəli və risklidir. "Qonşumun uşağı da belə idi, filan dərmanı içdi düzəldi" və ya "rəfiqəm mənə bu dərmanı məsləhət bildiyi üçün aldım" kimi bəsit yanaşmalar çox yanlış nəticələrə gətirib çıxara bilər. Uşaqların səhhəti ilə oynamaq olmaz və burada heç bir özfəaliyyətdən söhbət gedə bilməz. Dərman yalnız həkim tərəfindən təyin olunmalıdır. Hər uşağın orqanizmi fərqlidir və yanlış müdaxilə böyük risk daşıyır.

– *Müasir dövrün bizə yansıtdığı vərdişlərdən biri də qulaqcıqlardan istifadədir.Bu gün evdə, yolda, işdə əksəriyyətimiz qulaqcıqdan istifadə edirik. Bəzən zərurətdən, peşə fəaliyyətindən, bəzən isə heç bir ehtiyac olmadan da ondan istifadə olunur. Xüsusilə uşaq və yeniyetmələr saatlarla qulaqcıqdan istifadə edərək musiqi dinləyir və ya kino izləyirlər. Bu vərdişin hansı fəsadları ola bilər?*

– Bu, müasir dövrün gizli təhlükələrindən biridir. Yüksək səsdə uzun müddət qulaqcıqla musiqi dinləmək eşitmə sinirlərinə ciddi zərər verir. Yeniyetmələr bu riski hiss etməsələr də, nəticələri gecikmiş eşitmə itkisi, baş ağrıları, konsentrasiya çətinliyi və davranış pozuntuları ilə ortaya çıxır. Valideynlərə tövsiyəm odur ki, övladlarının qulaqcıqdan istifadə müddətini gündə maksimum 1 saatla məhdudlaşdırsınlar və səs səviyyəsini orta həddə saxlamasına diqqət yetirsinlər. Qulaqcıqdan fasilələrlə istifadə etmək lazımdır. Başqa bir məsələ isə qulaqcıqla bağlı gigiyenik qaydalara da əməl etməkdir. Belə ki, qulaqcıqlar dezinfeksiyaedici məhlullarla təmizlənməlidir. Mütəmadi olaraq istifadə edilən qulaqcıqlar vaxtlı-vaxtında təmizlənməzsə, göbələk, eləcə də müəyyən qulaq xəstəliklərinə yol aça bilər.

**"Valideynlər peyvəndlərdən çəkinməsinlər"**

– *Bəzi valideynlər uşaqlarını peyvənd etdirməkdən imtina edirlər və bunun onların gələcək inkişafına mənfi təsir göstərəcəyini düşünürlər. Əslində, isə peyvəndlərin uşaqları bir sıra ciddi xəstəliklərdən qoruduğunu bilirik. Bir həkim olaraq bu məsələylə bağlı nə deyərdiniz?*

– Uşaqların peyvənd olunması onların sağlam gələcəyinin təminatıdır. Peyvəndlər uşaqları qızılca, göy öskürək, difteriya, tetanus və digər yoluxucu xəstəliklərdən qorumaqla yanaşı, həm də uşaqdan-uşağa keçən təhlükəli xəstəlikləri aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaqla digərlərini də təhlükəsiz saxlayır.

Milli Peyvənd təqviminə uyğun olaraq hər bir uşaq müəyyən yaş dövrlərində mütləq peyvənd olunmalıdır. Hazırda ölkəmizdə peyvəndləmə səviyyəsi yüksəkdir, lakin bəzi valideynlərin könüllü şəkildə imtinası müşahidə olunur ki, bu da ictimai sağlamlıq üçün təhlükə yarada bilər. Çünki bir uşağın qorunmaması, digər uşaqlar üçün də risk deməkdir.

Bəzi valideynlərin bu məsələyə skeptik yanaşması, təəssüf ki, dezinformasiyadan qaynaqlanır. Elmi əsaslara söykənməyən fikirlər uşaqların həyatını riskə ata bilər.

Valideynlərə tövsiyəmiz budur ki, peyvəndlərdən çəkinməsinlər. Peyvəndlər nəinki uşaqların sağlamlığını qoruyur, həm də gələcəkdə xəstəliklərin yayılmasının qarşısını alır. Əksinə, valideyn peyvənd olunmayan uşağının həm bu gününü, həm də gələcəyini təhlükə altına qoyur.

**Uşaqlara sağlam həyat tərzi nümunəsi...**

– *Uşaq və yeniyetmələrimizin günün böyük hissəsini telefon və kompüter qarşısında keçirmələri,oturaq həyat tərzi sürmələri onların sağlamlığına necə təsir edir? Bu problemin qarşısını almaq üçün nə kimi tədbirlərin görülməsini və həyat tərzi dəyişikliklərini tövsiyə edirsiniz?*

– Bəli, çox təəssüf ki, bu gün bizlər qeyd etdiyiniz acı reallığın şahidiyik. Hazırkı dövrdə texnologiyanın inkişafı ilə uşaqların telefon, planşet və kompüter qarşısında keçirdikləri vaxt əhəmiyyətli dərəcədə artıb. Bu da onların oturaq həyat tərzi keçirmələrinə səbəb olur. Belə bir həyat tərzi fiziki və psixoloji sağlamlığa ciddi mənfi təsirlər göstərir. İlk növbədə, uzun müddət hərəkətsizlik piylənmə, əzələ və sümük zəifliyi, onurğa əyrilikləri və görmə problemləri yaradır. Eyni zamanda, emosional gərginlik, yuxu pozulmaları, diqqət dağınıqlığı və sosial izolyasiya kimi psixoloji problemlərə də səbəb olur.

Oturaq həyat tərzindən uzaqlaşmaq üçün valideynlər və müəllimlər uşaqlara fiziki aktivlik vərdişi qazandırmalıdır. Gündəlik olaraq açıq havada ən azı 60 dəqiqə hərəkətli fəaliyyət, velosiped sürmək, qaçmaq, futbol, basketbol oynamaq və ya sadəcə ailəvi gəzintilər çox faydalıdır. Təbii günəş işığı, təmiz hava və təbiətlə təmas uşaqların ümumi inkişafında böyük rol oynayır.

Eyni zamanda, valideynlər texnoloji cihazlardan istifadə müddətinə ciddi nəzarət etməli, konkret zaman sərhədləri qoymalı, alternativ maraqlı fəaliyyətlərlə – oxu, yaradıcılıq, oyun və idmanla uşağın gününü balanslaşdırmalıdır. Uşaqlara sağlam həyat tərzi nümunəsi valideynlər tərəfindən göstərilməlidir. Uşaq yaşda formalaşan bu sağlam vərdişlər gələcəkdə bir çox xroniki xəstəliklərin qarşısını almağa yardım edir.

Valideynlərə demək istəyirəm ki, uşaqlarının sağlamlığı ilə bağlı məsələlərə daha həssaslıqla və diqqətlə yanaşsınlar. Övladlarının səhhətlərində baş verə biləcək ən sadə əlamətlərə belə laqeydlik göstərməsinlər. Gecikmiş diaqnoz çox zaman ağır nəticələr doğurur. Unutmayın ki, sağlamlıqda ən qiymətli məqam vaxtında həkimə müraciətdir.

**Samirə KƏRİMOVA**
**Foto Kənan QAFAROV**

---

# ÇAĞDAŞ TƏHSİLDƏ TƏŞKİLATLANMA

## Şagird davranış qaydaları



"Azərbaycan müəllimi" qəzeti Azərbaycan Gənc Müəllimlər Assosiasiyası (AGMA) ilə birgə həyata keçirdiyi "Çağdaş təhsildə təşkilatlanma" layihəsi çərçivəsində Bakı şəhəri R.Hüseynov adına 49 nömrəli "İntellekt" məktəb-liseyin direktoru Elza Bağırzadənin məqaləsini təqdim edir.

Təbii sərvətlər tükənə bilən dəyərlərdir, lakin bilik və təhsil bir millətin davamlı inkişafı və gələcək nəsillərin formalaşması üçün əbədi kapitaldır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, təhsil hər bir ölkənin gücləndirilməsinə töhfə verən əsas amillərdəndir. Bu səbəbdən, ölkəmizdə təhsilin inkişafı istiqamətində həyata keçirilən islahatlar, müasir tədris metodlarının tətbiqi və beynəlxalq qiymətləndirmə proqramlarında iştirak müsbət nəticələr verməkdədir. Bu istiqamətdə həyata keçirilən mühüm təşəbbüslərdən biri də ümumtəhsil müəssisələrində tətbiq olunan "Şagird Davranış Qaydaları" layihəsidir.

**Layihənin məqsədi və əhəmiyyəti**

"Şagird davranış qaydaları" layihəsinin məqsəd və əhəmiyyətinə toxunaraq xüsusi vurğulamalıyıq ki, şagirdlər arasında nizam-intizamı təmin etməklə yanaşı, onların sosial davranışlarının tənzimlənməsi və xarakterlərinin formalaşması baxımından da mühüm əhəmiyyət kəsb edir. Təhsil mühitində qarşılıqlı hörmət, məsuliyyət və müsbət davranışların təşviq olunması layihənin əsas hədəfi olaraq diqqət çəkir.

Layihə çərçivəsində bir sıra pilot proqramlar həyata keçirilir:

* *Liderlik bacarıqlarının inkişafı*

Şagirdlərin liderlik potensialının artırılması üçün seminarlar, təlimlər və beynəlxalq tədbirlərdə iştirak imkanları yaradılır. Bu, gənclərin sosial məsuliyyət hissini gücləndirir və intizamlı davranışlara yönəldir.

* *İnnovativ yanaşmalar*

İnteraktiv tədris metodları və informasiya texnologiyalarının tətbiqi ilə dərslər daha cəlbedici olur, bu isə şagirdlərin diqqətini artırır və davranış qaydalarına əməl etmələrini stimullaşdırır.

* *Valideynlərlə əməkdaşlıq*

"Valideyn məktəbi" və "Açıq qapı" günləri vasitəsilə ailələr tədris prosesi və davranış qaydaları haqqında məlumatlandırılır. Bu, məktəb-valideyn əməkdaşlığını möhkəmləndirir.

*Nizam-intizamın təhsildə rolu*

Nizam-intizam təhsil sisteminin dayaq sütunudur. İntizamın olmadığı yerdə tədrisin keyfiyyətindən danışmaq mümkün deyil. Sinifdə və məktəbdə nizam-intizamın olması müəllim və şagird arasında sağlam münasibətlərin qurulmasına, stresin azalmasına və tədris prosesinin səmərəli həyata keçirilməsinə şərait yaradır.

*Xarakterin formalaşmasında davranış qaydalarının rolu*

Uşaqların şəxsiyyət və xarakterlərinin formalaşmasında məktəb, ailə və cəmiyyət birgə rol oynayır. Ailə ilkin davranış modellərini təqdim edir, məktəb isə sosial adaptasiya və kollektiv yaşayış qaydalarını aşılayır. Davranış qaydaları gənclərin gələcəkdə uğurlu və məsuliyyətli fərdlər kimi formalaşmasında həlledici rol oynayır.

*Nizam-intizam qaydalarının tətbiq prinsipləri*

Effektiv tətbiq üçün aşağıdakı əsas prinsiplər önəmlidir:

* Maarifləndirmə – şagird və valideynlərə nizam-intizamın əhəmiyyəti barədə məlumat verilməlidir.
* Rol-model olmaq – müəllim və rəhbərlik nümunəvi davranış sərgiləməlidir.
* Müsbət motivasiya – davranış qaydalarına əməl edən şagirdlər mükafatlandırılmalıdır.
* Aydın və başa düşülən qaydalar – qaydalar sadə, anlaşıqlı və praktik olmalıdır.

**Nəticə**

"Şagird davranış qaydaları" layihəsi yalnız tədris mühitini tənzimləməklə kifayətlənmir, həm də gənc nəslin psixoloji və sosial inkişafında böyük rol oynayır. Bu layihənin məqsədyönlü və sistemli tətbiqi gənclərin iradəli, milli-mənəvi dəyərlərə sadiq və vətənpərvər ruhda yetişməsinə şərait yaradır.

**Təkliflər**

1. Layihənin bütün məktəblərdə genişmiqyaslı tətbiqinin təmin edilməsi məqsədəmüvafiqdir.
2. Davranış qaydalarının effektivliyinin mütəmadi olaraq monitorinq edilməsi yenilənməsi faydalı olacaq.
3. Valideynlərin layihəyə daha aktiv cəlbi üçün maarifləndirici proqramların hazırlanması zəruridir.
4. Psixoloq və pedaqoqlarla əməkdaşlıq gücləndirilməlidir.

Müasir çağırışlar dünya elmi qarşısında bir sıra təxirəsalınmaz vəzifələr qoyur. Elmdə bəşəriyyətin tərəqqisinə yol açacaq qlobal xarakterli problemlərin həlli bu və ya digər dərəcədə alimlərimizin istedad və yorulmaz fəaliyyəti, elmi müəssisələrimizdə aparılan tədqiqatların nəticələrindən asılıdır. Ayrı-ayrı ölkələrin tədqiqat qurumlarının birgə əməkdaşlığı da elmdə yeni kəşflərə və ixtiralara yol açır. Öz tədqiqatları ilə Azərbaycanda yeni elmi istiqamətin əsasını qoyan alimlərimizdən biri də Elm və Təhsil Nazirliyinin akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun (NKPİ) laboratoriya müdiri, kimya elmləri doktoru, professor Eldar Hüseynqulu oğlu Məmmədbəylidir.

E.Məmmədbəyli asimmetrik Dils-Alder reaksiyası, optiki aktiv funksional əvəzolunmuş alitsiklik birləşmələrin, fizioloji aktiv maddələr, azot və kükürd birləşmələrin Mannix reaksiyası ilə sintezi, Azərbaycan yeni yataq neftlərinin, o cümlədən Naftalan neftinin optik aktivliyinin tədqiqi, metal kompleksləri, o cümlədən ferrosen və simantrenin amin törəmələrinin sintezi sahəsində məhsuldar tədqiqatlar aparıb. Təbii birləşmələr əsasında ekoloji təmiz üsulla yeni xiral katalizator sintez edilib və alınan katalizatorlar dien sintezində tətbiq olunub. Onun rəhbərliyi və iştiraki ilə alitsiklik sırası yeni bioloji aktiv maddələr, optiki fəal və fərdi stereo-izomerlər şəklində sintez edilib. Bu maddələrin bir çoxu yeni sintez olunmuş xiral katalizatorların iştiraki ilə aparılan Dils-Alder reaksiyası vasitəsilə alınıb. Sintez olunmuş maddələrin bioloji

# Elmi əməkdaşlığın uğurlu nəticəsi



Eldar Məmmədbəyli 1941-ci il yanvarın 22-də Gədəbəy rayonu, Arısu kəndində anadan olub. 1965-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin əczaçılıq fakültəsini bitirib. 1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının Neft-Kimya Sənayesi İnstitutunun aspiranturasına daxil olub. Son tədris ilində (1969-1970) SSRİ Elmlər Akademiyasının Kimya Fizikası İnstitutunda təcrübə keçib. 1978-ci ildə SSRİ Elmlər Akademiyasının Element Üzvi Birləşmələr İnstitutunda namizədlik, 2004-cü ildə doktorluq dissertasiyalarını müdafiə edib. 2007-ci ildən baş elmi işçi, 2008-ci ildən qrup rəhbəri olub, 2012-ci ildə laboratoriya müdiri, 2013-cü ildə isə professor elmi dərəcəsi alıb.

Professor Eldar Məmmədbəylinin 630-dan çox elmi məqaləsi dərc olunub. Bunlardan 12-si SSRİ müəlliflik şəhadətnaməsi, 5-i Azərbaycan patenti, 3-ü monoqrafiyadır. Məqalələrinin bir çoxu “Tetrahedron”, “Green Chemistry”, “JOpX”, “JOX”, “JPX”, “Nefteximiya”, “Kataliz v promışlennosti”, “İzvestiye RAN, “Ser. Xim.”, “Analitiçeskaya ximiya”, “Azərbaycan kimya jurnalı”, “Neft kimyası və neft emalı prosesləri” kimi jurnallarda dərc olunub. Bu əsərlərdən 31-i REA EÜBİ-nin əməkdaşları ilə birgə dərc edilib.

Eldar Məmmədbəylinin asimmetrik sintez sahəsində apardığı iş Rusiya Federasiyasının müəllifləri V.Smit, A.Dilman olan “Osnovı sovremennoqo orqaniçeskoqo sinteza” adlı üzvi kimya dərsliyinə (Moskva: BİNOM, 2017) daxil edilib. Rusiya Federasiyasında çap olunan “Jurnal Orqaniçeskoy Ximii” adlı jurnalda (2021-ci il №8) Eldar Məmmədbəylinin fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Eldar Məmmədbəylinin rəhbərliyi ilə səkkiz fəlsəfə doktoru, üç elmlər doktoru dissertasiya işləri müdafiə olunub. Hazırda onun rəhbərliyi altında 4 əməkdaş fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işi üzərində işləyir.

Professor E.Məmmədbəyli uzun müddətdir ki, üzvi kimya və asimmetrik sintez sahəsində tanınmış alimlərdən biridir. O, xiral katalizatorların asimmetrik dien sintezində tətbiqinin banilərindən biri kimi tanınır.

E.Məmmədbəyli üzvi asimmetrik sintez sahəsində mühüm praktiki əhəmiyyətə malik bir sıra elmi problemləri irəli sürüb və onların həllinə nail olub. Onun rəhbərliyi altında asimmetrik sintezdə istifadə olunan yeni xiral katalitik sistemin alınması üsulu yaradılıb, mentol, kamfora, borneol və s. təbii birləşmələr əsasında Lyuis xiral turşularının sintezi həyata keçirilib. Xiral katalizatorların istifadəsi 94%-ə qədər optik çıxımla yüksək səviyyəli adduktların alınmasına imkan verib.

aktivliklərinin quruluşlarından asılı olaraq dəyişməsinin tədqiqi və onun gördüyü tədqiqat işlərinin sırasına daxildir.

Əlavə edək ki, Azərbaycanın nüfuzlu elmi müəssisələrindən olan Neft-Kimya Prosesləri İnstitutunun (NKPİ) alimləri neft texnologiyası, üzvi kimya və neft kimyası sahəsində Rusiya Federasiyasının alimləri ilə əməkdaşlıq edir, birgə tədqiqatlar həyata keçirir. Azərbaycan Milli Elmlər Akademiyası və Rusiya Elmlər Akademiyası (REA) arasında 2005-ci ildə bağlanan əməkdaşlıq Sazişinin mövzu planına NKPİ-nin əməkdaşı E Məmmədbəylinin iki elmi istiqamətdə həyata keçirdiyi tədqiqatlar da daxildir. Saziş çərçivəsində NKPİ ilə Rusiya REA-nın Element Üzvi Birləşmələr İnstitutu (EÜB) arasında ikitərəfli elmi-texniki müqavilə bağlanıb. Üçillik müqavilənin (2007-2010-cu illər) müddəti 2010-cu ildə daha beş il müddətinə, 2015-ci ilə qədər uzadılıb.

Neft-Kimya Prosesləri İnstitutu və Element Üzvi Birləşmələr İnstitutu arasında 2018-ci ildə 5 il müddətinə yeni elmi-texniki müqavilə, 2025-ci ilin fevralında isə 5 illik Memorandum imzalanıb.

Qeyd edək ki, Azərbaycan tərəfindən bu müqavilələrin koordinatoru və məsul icraçısı NKPİ-nin laboratoriya müdiri professor Eldar Məmmədbəylidir. Bu müqavilələr əsasında asimmetrik sintez, Azərbaycan neftlərinin optik aktivliyinin öyrənilməsi, sənaye bitkilərinin mikrokapsullaşma üsulu ilə becərilməsi, tərkibində azot, kükürd, fosfor saxlayan müxtəlif yeni birləşmələrin sintezi və faydalı xassələrinin öyrənilməsi sahəsində tədqiqatlar aparılıb. Bu sahədə aparılan tədqiqat işlərinə görə Eldar Məmmədbəyli 2025-ci ildə Rusiya REA-nın Element Üzvi Birləşmələr İnstitutunun Fəxri Fərmanı ilə təltif olunub.

Ölkə başçısının müvafiq sərəncamı ilə E.Məmmədbəyli 2019-cu ildə Azərbaycanda neft-kimya elminin inkişafındakı xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif edilib.

Eldar müəllim müxtəlif illərdə ayrı-ayrı universitetlərdə tələbələrin buraxılış diplom işlərinə rəhbərlik edib. O, son illərdə Moskva Dövlət Universitetinin Bakı filialının 3 bakalavr tələbəsinin diplom işinin rəhbəri olub.

E.Məmmədbəyli NKPİ-nin Elmi Şurasının və Dissertasiya Şurasının, “Azərbaycan Əczaçılıq və Farmakoterapiya”, “Neft kimyası və neft emalı prosesləri”, “Kimya problemləri”, “Vestnik KNİİ RAN. Seriya “Estestvennıye i texniçeskiye nauki” və “Avisenna” jurnallarının Redaksiya Şurasının üzvüdür.

**Oruc MUSTAFAYEV**

# Etibarsız sayılır

**Naxçıvan Universiteti** (Bakı şəhərində yerləşən özəl) tərəfindən 1998-ci ildə Vələdov Emin Azər oğluna verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Əliyeva (Allahverdiyeva) Xanım Fəxrəddin qızına verilmiş 666318 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş İbrahimov Bəhruz Müşfiq oğluna verilmiş C-216353 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Xəlilova Fidan İntifaq qızına verilmiş A-347971 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Ələkbərli Elmir Azər oğluna verilmiş A-323507 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Çuxanlı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Bünyatova (Ağayeva) Aygün Səxavət qızına verilmiş A-292616 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2019-cu ildə Nəcəfzadə Rahib Etibar oğluna verilmiş AA-126886 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Texniki Kollec tərəfindən 2023-cü ildə Səfərova Nəzrin Elşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci** tərəfindən 2023-cü ildə Rzayeva Aytac Rövşən qızına verilmiş AA-189257 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1998-ci ildə Hacıyev Araz Əkbər oğluna verilmiş AB-I-041974 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1998-ci ildə Hacıyeva (Mövsümova) İlhamə Oktay qızına verilmiş AB-I-042918 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 1998-ci ildə Ağayev Emil Nadir oğluna verilmiş AB-II-031366 nömrəli diplom tapıldığı üçün etibarlı sayılır.

**İsmayıllı şəhər** 2 nömrəli tam orta məktəbin qiyabi qrupunu 2005-ci ildə bitirmiş Ağayev Sadiq Məmmədağa oğluna verilmiş B-200151 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 3 nömrəli məktəb-liseyi 2023-cü ildə bitirmiş Məmişov Hüseyn Ceyhun oğluna verilmiş E-619813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Hüngütlü kənd tam orta məktəbin VIII sinfini 1984-cü ildə bitirmiş Abbasova Almaz İslam qızına verilmiş AZ-II-724301 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Süleymanov Miridris Bəxtiyar oğluna verilmiş C-941548 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Bığır kənd 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Umudov Namiq Nizam oğluna verilmiş A-527956 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən rayon** 6 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Hüseynov Kənan Ağabala oğluna verilmiş A-355605 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 247 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Orucov Rəşad Azər oğluna verilmiş A-290702 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Ağababayev Sərdar Ayaz oğluna verilmiş C-299872 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Nəzərli Röyal İlkin oğluna verilmiş E-478914 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Muğanlı kənd 4 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Quliyev Eltəkin Adil oğluna verilmiş A-082814 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qara-zadə Səma Vüqar qızına verilmiş B-479005 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1999-cu ildə Abbasova Rəna Əziz qızına verilmiş AB-II-042634 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 237 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Süleymanov İlham Rufullah oğluna verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Kolleci** tərəfindən 2002-ci ildə Ələkbərov Müşviq Balakişi oğluna verilmiş AB-II-082497 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əhmədova Salatın Yelmar qızına verimiş B-601960 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa şəhər** 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Ələkbərov Tural Elşən oğluna verilmiş B-404712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Ağayev Xanış Cavanşir oğluna verilmiş A-332474 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Kərimli Günel Rauf qızına verilmiş E-676860 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 4 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Abuşov Nemət Mətləb oğluna verilmiş A-040095 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Hacıyeva Nərmin Sərhad qızına verilmiş A-469151 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2009-cu ildə Xəlilov Süleyman Fəxrəddin oğluna verilmiş B-074042 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Böyük Qaramurad kənd tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Cəfərova Kəmalə Firudin qızına verilmiş A-666608 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2126 **Sifariş** 921
**Məsul növbətçi:** S.Kərimova

**Saray qəsəbə** 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Zeynalova Sara Elmar qızına verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Orta Muğan kənd tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Muradov Tərlan Nəriman oğluna verilmiş A-575520 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Bağbanlar kənd tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Bayramlı Şirindil Şahin oğluna verilmiş A-119951 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2006-cı ildə bitirmiş Teymurova Sevinc Hikmət qızına verilmiş B-258625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2010-cu ildə Teymurova Sevinc Hikmət qızına verilmiş B-180437 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Quliyeva Laura Oktay qızına verilmiş E-476835 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2015-ci ildə Mürşüdova Faridə Mübariz qızına verilmiş B-271169 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1993-cü ildə Hacıyev Azər Hacıağa oğluna verilmiş AB-028348 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Quliyev Elxan Eldar oğluna verilmiş B-184573 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Sərkərli kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Siracova Gülşən Elvin qızına verilmiş C-497783 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Verdiyev Şahin Sabir oğluna verilmiş E-241347 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Yusifli Yunis Azər oğluna verilmiş B-704093 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 1 nömrəli məktəb-liseyi 1993-cü ildə bitirmiş Rəhimov Zahid Musa oğluna verilmiş A-024287 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Eyyubova Güldəstə Adil qızına verilmiş A-101206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Quşqara kənd tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Məmmədov Əli Natiq oğluna verilmiş C-386079 nömrəli ümumi orta təhsil haqqında attestat və 2022-ci ildə verilmiş E-473556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Qızılca kənd tam orta məktəbin (VIII) IX sinfini 1985-ci ildə bitirmiş Salmanlı Mikayıl Qənbər oğluna verilmiş 647747 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Hüseynova (Bəxtiyarova) Kəmalə Arif qızına verilmiş A-254341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əşrəfova (Mehdiyeva) Jalə Qalib qızına verilmiş B-304660 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Avropa** Liseyi 2006-cı ildə bitirmiş Əliyeva İlhamə Bahadur qızına verilmiş A-355011 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** İnternat tipli xarici dillər təmayüllü gimnaziyanı 2019-cu ildə bitirmiş Adıgözəlov Yusif İsmayıl oğluna verilmiş E-214933 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Eyvazova Pərvanə Anar qızına verilmiş E-366614 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Mirzəcanova (Mirzəyeva) Naibə Əzim qızına verilmiş AK-291639 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şahbuz şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Nəbili Nizaməddin Mayis oğluna verilmiş A-317436 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Gələbədin kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Məmmədova İradə Əkbər qızına verilmiş A-016771 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.